

## Belarus XİN Azərbaycana təşəkkür edib
9

# Dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin Brüssel səfərindən yazır



№ 231 (6431) 17 dekabr 2021-ci il. Qiymәti 40 qәpik


giovedì 16 dicembre 2021 Select Your Language LOGIN ABBONAMENTI

agenzia NOVA

ACCELERATING TECHNOLOGY EVOLUTION LEONARDO

ULTIM'ORA Russia-Germania: "Russia Today", YouTube ha bloccato nuovo canale in lingua tedesca "RT Deutsch"

INTERNI ESTERI ECONOMIA ROMA MILANO NAPOLI TORINO SARDEGNA ENERGIA DIFESA INFRASTRUTTURE ARCHIVIO

ANALISI: Atlantide, Mezzaluna, Cuor d'Africa, Capitolium

RUBRICHE: Business News, Speciale energia

AZERBAIGIAN-ARMENIA

Share

**Azerbaigian-Armenia: fonti, incontro tra Aliyev e Pashinyan dimostra impegno Ue**

*Bruxelles , 15 dic 23:04 - (Agenzia Nova)* - Il vertice del Partenariato orientale si è svolto in "una atmosfera particolarmente positiva" nella cornice di un incontro di oltre quattro ore tra il presidente presidente dell'Azerbaigian, Ilham Aliyev, e il primo ministro armeno Nikol Pashinyan. Lo ha riferito un funzionario Ue. "L'incontro tra Armenia e Azerbaigian è stata una chiara dimostrazione dell'impegno dell'Unione nei confronti della regione affinché si sblocchi la situazione e degli sforzi per affrontare anche problemi intrattabili. I leader hanno considerato gli ultimi sviluppi a Bruxelles come "un'evoluzione molto positiva dopo 30 anni di conflitto'", ha sottolineato il funzionario. (Beb) (Beb) © *Agenzia Nova - Riproduzione riservata*

TUTTE LE NOTIZIE SU..: GRANDE MEDIO ORIENTE, EUROPA, AFRICA SUB-SAHARIANA, ASIA, AMERICHE

Diplomazia Economica Italiana

3

## Belarus ekspertləri:
## "Minsk Azərbaycanın Brüsseldəki dəstəyini unutmayacaq"
15



# Soçidən Brüsselə uzanan "Zəngəzur dəhlizi"



2

# Mbappe:



## "Təcrübə puldan vacibdir"

PSJ-nin futbolçusu Kilian Mbappe gələcək karyerası və planları barədə danışıb. Qol.az GFNN-ə istinadən xəbər verir ki, 23 yaşlı hücumçu əsas məqsədinin çox pul qazanmaq ...

16



# Media Qanunu:

## Yeni trendlər, yeni çağırışlar nələri dəyişdirir?

8

## Brüssel görüşü ilə bağlı gizli detallar: Paşinyan niyə kommunikasiya xətti deyir?





## Turistlər Azərbaycanda və dünyada haraları görməlidir?
11

Biz, böyük və ecazkar bir dünyada yaşayırıq. Əslində, dünyanın ən gözəl yerlərini seyr edərkən növbəti dəfə hara...



## Onlayn alış-veriş edərkən nələrə diqqət edilməlidir?
14

Onlayn alış-veriş əməliyyatlarında hər hansı saxta əməliyyatlarla qarşılaşmağınıza onlayn alış-veriş fırıldaqçılığı...

# Soçidən Brüsselə uzanan "Zəngəzur dəhlizi"



**Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında konstruktiv mühitdə keçən görüşü və burada müzakirə olunan məsələlər dünya mətbuatının gündəmindədir. Ekspert rəyləri əsasən Azərbaycan Prezidentinin Brüsseldə əldə etdiyi uğurlar üzərində qurulub.**

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi, Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası və bununla bağlı hər iki tərəfdən müvəqqəti işçi qrupunun yaradılması, eyni zamanda, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələlərinin geniş müzakirə olunduğu görüşün əsas mövzusu, əlbəttə Zəngəzur dəhlizi olub. Ermənistan tərəfinin öz ərazisindən çəkiləcək dəmir yolu xətti ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq etməsi maraqlı məqamlardandır. Məlum olub ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcək. Həmin xətt üzərində gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması, avtomobil yolu marşrutunun müəyyən edilməsi də müzakirə mövzusu olub.

Müzakirələrin hansı məcrada getdiyini Azərbaycan Prezidentinin İspaniyanın "El Pais" qəzetinə verdiyi müsahibədə dəqiqləşdirmək olar. Prezident bildirib ki, İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var: "Biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik".

Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel Ermənistan və Azərbaycan liderləri ilə görüşdən sonra bəyanatla çıxış edib: "İki ölkənin liderləri üçtərəfli bəyanatlara sadiqliklərini təsdiqlədiklərindən və tərəflərin müdafiə nazirlikləri arasında əlaqələrin qurulmasında irəliləyişin olduğunu qeyd etdiklərindən, Avropa Şurası İrəvan və Bakı arasında iqtisadi əməkdaşlığın inkişafı və etimadın yaradılması üçün platforma yaratmağı təklif edir".

Avropa İttifaqı Şurasının rəhbərinin bəyanatında əsas humanitar məsələlərin tezliklə həllinin vacibliyi vurğulanır, itkin düşənlərin taleyinə aydınlıq gətirilməsi qeyd edilir. Sənəddə deyilir ki, Aİ humanitar minatəmizləmə, o cümlədən ekspert məsləhəti və münaqişədən təsirlənmiş əhaliyə yardım, reabilitasiya və yenidənqurma səylərini dəstəkləməyə davam edəcək. Ermənistanla Azərbaycan arasında və bütövlükdə Cənubi Qafqazda kommunikasiyaların bərpasının vacibliyi vurğulanıb və bu proses bütün ölkələrin suverenliyinə tam hörmətlə baş verməlidir. Ş.Mişel dəmir yolu xətlərinin bərpasına başlamaq qərarını görüşün əsas nəticələrindən biri adlandırıb və əlavə edib ki, Avropa Şurası da öz növbəsində iqtisadi və investisiya planına uyğun olaraq kommunikasiyaların açılmasını dəstəkləməyə hazırdır.

Bəs Ermənistan tərəfi danışıqlar və müzakirə olunan məsələlər barədə nə yazır? Ermənistanın baş naziri Nikol Paşinyan özünün Facebook səhifəsində yazıb ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Azərbaycan Prezidenti İlham Əliyevlə üçtərəfli görüşdə dəmir yolunun yenidən işə salınması ilə bağlı razılıq təsdiqlənib: "Qarşılıqlı prinsiplər üzrə beynəlxalq səviyyədə tanınmış sərhəd və gömrük qaydalarına uyğun olaraq, ölkələrin suverenliyi və yurisdiksiyası altında Ermənistan dəmir yolu ilə İran İslam Respublikası və Rusiya Federasiyasına çıxış əldə edəcəyik. Biz həmçinin təmasları davam etdirmək barədə razılığa gəldik".

Ermənistanın baş naziri Nikol Paşinyan dekabrın 16-da hökumətin iclasında bildirib ki, Brüsseldə Azərbaycan Prezidenti ilə görüşdə Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisi ilə bağlı qərarımızı və razılığımızı bir daha təsdiqlədik. Bu razılıq üç ölkənin baş nazirinin müavinlərinin rəhbərlik etdiyi regional kommunikasiyaların açılması ilə məşğul olan Ermənistan-Rusiya-Azərbaycan üçtərəfli işçi qrupunun müzakirələri nəticəsində əldə olunub. Bu razılaşma noyabrın 26-da Soçidə keçirilən görüşdə qeydə alınıb. İndi isə bütün bunlar Brüsseldə bir daha təsdiqlənib.

Onun sözlərinə görə, dəmir yolu beynəlxalq səviyyədə tanınmış sərhəd və gömrük qaydalarına uyğun, qarşılıqlılıq prinsipi əsasında, ölkələrin suverenliyi və yurisdiksiyası altında fəaliyyət göstərəcək: "Bu dəmir yolu vasitəsilə Ermənistan İran və Rusiyaya, Azərbaycan isə Naxçıvanla dəmir yolu əlaqəsinə çıxış əldə edəcək". Baş nazir həmçinin vurğulayıb ki, Türkiyə ilə müəyyən dialoqa başlamaq, sərhədləri və kommunikasiyaları açmaq mümkün olsa, layihə daha da genişlənə bilər: "Yəni, haqqında danışdığımız dəmir yolu Arazdəyəndən Gümrüyə qədər mövcuddur, Gümrüdən Qarsa dəmir yolu var. Amma tikintidən əvvəl geniş işlər görmək lazımdır. Təbii ki, onun bir hissəsi artıq başa çatıb, lakin indi əməli və gündəlik işlərlə problemləri həll etmək lazımdır".

Paşinyan bu məsələ ilə bağlı dar formatda görüşün keçiriləcəyini də vurğulayıb: "Biz dəmir yoluna mümkün qədər tez sahib olmaq istəyirik. Mən bu müqavilənin və layihənin əhəmiyyətini çox qiymətləndirmək istəmirəm, lakin digər tərəfdən də qiymətləndirmək istəmirəm. Ümid edirəm ki, biz lazımi şəkildə həyata keçirəcəyik və regionda iqtisadi, investisiya, siyasi və təhlükəsizlik mühitini əhəmiyyətli dərəcədə dəyişdirəcək mühüm sazişdir".

2022-ci il yanvarın 15-dək Ermənistanda Paşinyanla birbaşa təmasda olacaq işçi qrupu və digər qrup yaradılacaq. Bu barədə Türkiyənin "Habertürk" qəzetinin jurnalisti Çetiner Çətin Ermənistan-Türkiyə münasibətlərinin nizamlanmasından danışarkən yazıb: "Ermənistan və Türkiyə arasında üç dərəcə yol xəritəsi olacaq. İlk növbədə çarter reysləri başlayacaq. Danışıqların əsas məsələsi Türkiyə-Naxçıvan-Şərqi Zəngəzur dəhlizinin açılması olacaq. Ankara bu dəhlizin 2022-ci ilin may-iyun aylarından əvvəl açılmasını istəyir. Üçüncü mərhələdə isə iqtisadi əlaqələr başlayacaq. Bu mərhələ iyulda başlayacaq".

Erməni ekspert Suren Sarkisyan öz Facebook səhifəsində məsələyə fərqli yanaşıb və bildirib ki, Ermənistan öz tarixində ilk dəfə olaraq Türkiyənin bütün ilkin şərtlərini yerinə yetirdi: "1992-ci il yanvarın 6-dan Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması ABŞ-ın xarici siyasətində prioritet məsələ olub. Bütün mərhələlərdə, belə bir fürsət olanda Vaşinqton Ermənistan-Türkiyə prosesini dəstəkləyib. İndi Amerika siyasətinin intensivləşməsi də bununla bağlıdır. İndi hamımız (Türkiyə və Azərbaycanla) barışığa razılaşmağa həvəslənəcəyik, çünki biz ərazimiz, suverenliyimiz hesabına güzəştlərə getməyə hazırıq".

Jurnalistlərə müsahibəsində Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan isə bildirib ki, Azərbaycanla dəmir yolunun tikintisi 1,2 milyard dollara başa gələcək. O, izah edib ki, ən böyük layihə Horadizə gedən yolun tikintisidir ki, bu da 1 milyard dollardan artıq vəsaitə başa gələ bilər.

Kerobyan əlavə edib ki, digər böyük layihə dəmir yolunun Mehri hissəsində bərpa və ola bilsin ki, təxminən 200 milyon dollara başa gələ biləcək yeni dəmir yolunun tikintisidir. "Arazdəyəndən İrana qədər olan hissənin tikintisinə çox az pul xərclənəcək. Söhbət bir neçə yüz metr dəmir yolunun təmirindən gedir. Amma bütün dəmir yolu bir anda istifadəyə veriləcəksə, bu, bir neçə il çəkəcək".

Bəs Ermənistanın baş naziri Nikol Paşinyanın inadını, inkarını kim və necə sındırdı? Bu, əlbəttə, gözlənilməyən, təsadüfi addım deyildi. Baş naziri və onun hakimiyyətini, xuntasını hərb meydanında olduğu kimi, masada da məğlub etməyin, haqq işimizi qəbul etdirməyin yolunu təbii ki, Azərbaycan Prezidenti dəqiq hesablamışdı. İlham Əliyevin cəsarəti, inadı, haqq işindən dönməməsi, milli maraqlarımıza sadiqliyi qısa müddətdə mümkün görünməyəni mümkün etdi. Ermənistan əvvəlcə strateji tərəfdaşı olan Rusiyanın əli ilə Soçidə Azərbaycana təzyiq etməyə çalışdı, müxtəlif arqumentlərə işarə vuran Nikol Paşinyan iddialarını yeridə bilməyəcəyini anlayınca əlində olanları itirməmək üçün Azərbaycan Prezidentinin təkliflərini, tələblərini qəbul etməli oldu. İkinci bir cəhd isə Avropada gerçəkləşdirildi. Əvvəlcə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel vasitəsilə kəşfiyyat aparıldı. Mövqelər bir daha dəqiqləşdirildi, imkanlar götür-qoy edildi. İlham Əliyevin arqumentləri, tarixi arayışları, hazırkı imkanlar və reallıqlar ortaya qoyulandan sonra ümid sona, yekuna qaldı. Bu dəfə isə Fransa prezidenti, Ermənistanın və ermənilərin hamisi rolunda çıxış edən Emmanuel Makron səhnəyə çıxdı. Halbuki, Makronla görüş barəsində əvvəlcədən heç bir açıqlama verilməmişdi. Onun cəhdləri isə uzağa gedə bilmədi, yalnız Soçi və Brüsseldə aparılan danışıqların xatırlanması oldu. Makron sanki Azərbaycan və Ermənistan liderlərinin öz dilindən Cənubi Qafqazda baş verən hadisələr barədə məlumat almaq istəyirdi və aldı.

Bir daha məlum oldu ki, Makronun timsalında Fransanın Ermənistanla Azərbaycan arasında mövcud problemlərin həllində heç bir rolu yoxdur və ola da bilməz.

***V.VƏLİYEV***

# Dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin Brüssel səfərindən yazır

**Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Brüsselə səfəri və keçirdiyi görüşlər Gürcüstan kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir.**

Belə ki, 24news.ge, actual.ge, interpress.ge, kavkasia.net informasiya portalları, 1tv.ge televiziyası Azərbaycan Prezidentinin Brüsselə səfərini geniş işıqlandırıb. Materiallarda Avropada yaşayan azərbaycanlıların Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi Brüsseldə coşqu ilə qarşıladıqları xüsusi qeyd olunub.


Алиев: Зангезурский коридор должен действовать как Лачинский коридор

15/12/2021

«Зангезурский коридор должен действовать как Лачинский коридор», – заявил президент Азербайджана Ильхам Алиев на совместной пресс-конференции с генеральным секретарем НАТО Йенсом Столтенбергом в Брюсселе, отвечая на вопрос PCE/PC.

«Пункт об открытии «Зангезурского коридора» предусмотрен трехсторонним заявлением лидеров Азербайджана, России и Армении от 10 ноября 2020 года. Таким образом, это обязанность Армении», – заявил Алиев.


ევროკავშირი აზერბაიჯანსა და სომხეთს შორის საზღვრის დელიმიტაციისა და დემარკაციის საკითხებში მხარდასაჭერად ექსპერტთა სპეციალურ მისიას ქმნის


giovedì 16 dicembre 2021 Select Your Language

agenzia NOVA

ULTIM'ORA Russia-Germania: "Russia Today", YouTube ha bloccato nuovo canale in lingua tedesca "RT Deutsch"

INTERNI ESTERI ECONOMIA ROMA MILANO NAPOLI TORINO SARDEGNA ENERGIA DIFESA INFRASTRUTTURE ARCHIVIO

AZERBAIGIAN-ARMENIA

**Azerbaigian-Armenia: fonti, incontro tra Aliyev e Pashinyan dimostra impegno Ue**

*Bruxelles , 15 dic 23:04 - (Agenzia Nova)* - Il vertice del Partenariato orientale si è svolto in "una atmosfera particolarmente positiva" nella cornice di un incontro di oltre quattro ore tra il presidente presidente dell'Azerbaigian, Ilham Aliyev, e il primo ministro armeno Nikol Pashinyan. Lo ha riferito un funzionario Ue. "L'incontro tra Armenia e Azerbaigian è stata una chiara dimostrazione dell'impegno dell'Unione nei confronti della regione affinché si sblocchi la situazione e degli sforzi per affrontare anche problemi intrattabili. I leader hanno considerato gli ultimi sviluppi a Bruxelles come "un'evoluzione molto positiva dopo 30 anni di conflitto"', ha sottolineato il funzionario. (Beb) (Beb) © *Agenzia Nova - Riproduzione riservata*


LIBERO 24x7

CERCA NOTIZIE

...gian. Aliyev a Bruxelles per Nato e Ue. ...o incontra con il premier armeno Pashinyan


Notizie Geopolitiche

Quotidiano indipendente on line di geopolitica e politica estera - dal 2011

PRIMO PIANO PANORAMA FOCUS L'INTERVISTA L'ANALISI ECONOMIA IL PUNTO

**AZERBAIGIAN. ALIYEV A BRUXELLES PER NATO E UE. MICHEL LO INCONTRA CON IL PREMIER ARMENO PASHINYAN**

15 Dicembre 2021

Cs –

Il presidente della Repubblica dell'Azerbaigian Ilham Aliyev si è recato a Bruxelles per una visita di lavoro al fine di partecipare al 6° vertice del partenariato orientale dell'Unione Europea, ed ha incontrato il Presidente del Consiglio Europeo Charles Michel.
Le parti hanno salutato il successo dello sviluppo delle relazioni tra l'Unione Europea e l'Azerbaigian e hanno ricordato la visita di Charles Michel nella Repubblica dell'Azerbaigian di quest'anno. Durante l'incontro è stato

PRIMO PIANO

UE. PREMIO SACHAROV 2021 A NAVALNY. MA NON È TUTTO ORO...

ALTOLÀ DEL G20 ESTERI AD AZIONI MILITARI DELLA RUSSIA CONTRO L'UCRAINA

GB. L'ALTA CORTE DECIDE DI ESTRADARE NEGLI USA ASSANGE, FONDATORE DI...


HOME / ESTERI

**Azerbaigian–Armenia: visita Aliyev a Bruxelles, "nuovo traguardo per la pace"**

Le parti hanno salutato il successo dello sviluppo delle relazioni tra l'Unione europea e l'Azerbaigian

15 Dic 2021 • Redazione

Nella recente visita del presidente dell'Azerbaigian **Ilham Aliyev** a Bruxelles sono stati sottolineati i risultati raggiunti rispetto alle pace raggiunta con l'Armenia. Secondo quanto riferito in una nota rilasciata dall'ambasciata azerbaigiana in Italia, Aliyev è arrivato il 13 dicembre nella capitale del Belgio, per una visita di lavoro al fine di partecipare al 6° vertice del partenariato orientale dell'Unione europea. Il 14 dicembre si sono incontrati Aliyev e il presidente del Consiglio europeo Charles Michel. Le parti hanno salutato il successo dello sviluppo delle relazioni tra l'Unione europea e l'Azerbaigian e hanno ricordato la visita di Michel nella Repubblica dell'Azerbaigian di quest'anno. Durante l'incontro è stato sottolineato il sostegno dell'Ue alla normalizzazione delle relazioni tra Armenia e Azerbaigian. Aliyev ha ringraziato Michel per il suo contributo a tali questioni. Hanno inoltre scambiato

Area Clienti agenzia NOVA

Metropoli


LUISS Osservatorio sulla Sicurezza Internazionale

SicurezzaInternazionale

HOME AFRICA AMERICA LATINA ASIA EUROPA IMMIGRAZIONE RUSSIA MEDIO ORIENTE USA E CANADA IL COMMENTO VIDEO APPROFONDIMENTI

**Nagorno-Karabakh: vertice trilaterale tra Armenia, Azerbaigian e UE**

ARMENIA AZERBAIGIAN EUROPA

Bruxelles ha ospitato, martedì 14 dicembre, un vertice trilaterale tra il primo ministro armeno, Nikol Pashinyan, il presidente dell'Azerbaigian, Ilham Aliyev, e il presidente del Consiglio Europeo, Charles Michel.

A riportare la notizia, il medesimo martedì, è stato il quotidiano russo Izvestija. I leader di Armenia e Azerbaigian hanno assicurato all'UE il loro impegno sull'attuazione degli accordi sul Karabakh, raggiunti con la mediazione della Russia. "Il primo ministro Pashinyan e il presidente Aliyev hanno confermato che gli impegni chiave presi nel quadro delle due dichiarazioni trilaterali del 9 novembre 2020 e dell'11 gennaio 2021 saranno rispettati e che gli accordi raggiunti a Sochi il 26 novembre 2021 devono essere attuati", si legge in un comunicato, pubblicato sul sito web del Consiglio Europeo. Michel ha sottolineato che anche le questioni umanitarie, come il rilascio dei detenuti, sono di importanza decisiva. Il presidente del Consiglio dell'UE ha poi esortato le parti ad

Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, NATO-nun Baş katibi Yens Stoltenberq, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü, keçirilən mətbuat konfransları barədə geniş materiallar dərc olunub. Azərbaycan, rus, ingilis və gürcü dillərində təqdim olunan materiallarda Azərbaycanın haqlı mövqeyi, Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət, Prezident İlham Əliyevin söylədiyi fikirlər əksini tapıb.

İtaliyanın kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri zamanı keçirdiyi görüşləri geniş işıqlandırıb.

"Nova.news", "Libero 24x7", "Notizie Geopolitiche", "Sicurezza Internazionale", "Agenzia Nova" kimi xəbər portalları Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşlərindən, keçirdiyi mətbuat konfransından və verdiyi bəyanatlardan yazıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin Brüsselə səfəri sülh üçün yeni mərhələdir. Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına dəstək verdiyi vurğulanıb. Həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurlu inkişafı da xüsusi qeyd edilib.

Yazılarda Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə birgə görüş keçirdiyi bildirilib. Görüşün konstruktiv şəkildə keçdiyi vurğulanıb. NATO-nun isə Azərbaycanın regional nəqliyyat və logistika mərkəzi kimi verdiyi töhfələri yüksək qiymətləndirdiyi bildirilib. Eləcə də Zəngəzur dəhlizinin açılmasının əhəmiyyəti xüsusi qeyd olunub.

# Avropa Azərbaycan həqiqətlərini dərk etməkdədir



**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüş diqqət mərkəzindən kənarda qala bilməz və artıq çox böyük marağa səbəb olub. Çünki, bütün dünya şahidi oldu ki, Brüssel görüşü zamanı aydın şəkildə nümayiş etdirildi ki, Qərb bölgədə rolunu aktivləşdirmək istəyindədir və çıxış yolunu Azərbaycanın mövqeyini dəstəkləməkdə, haqlı olduğunu etiraf etməkdə görür. Hər bir halda bu görüş də ölkəmizin növbəti diplomatik qələbəsi hesab olunur.**

Soçi görüşünün ardınca Brüssel görüşü də rəsmi Bakının mövqeyinin müdafiə olunması ilə yadda qaldı. Avropa İttifaqının İrəvanın deyil, məhz rəsmi Bakının təkliflərini dəstəkləməsi göz qabağında idi və bunu erməni cəmiyyəti də müşahidə etdi. Bu dəfə də ermənilər müşahidə etdilər ki, Azərbaycan tərəfinin təklifləri, mövqeyi artıq bütün dünyada qəbul olunub və bundan sonra onların üz tutacaqları başqa bir platforma, başqa bir məkan qalmayıb. Üz tutsalar belə bunun əhəmiyyətsiz olacaqlarına əminlikləri artdı. Yəni, ermənilərin gözü önündə sığındıqları Aİ Prezidenti Azərbaycana dəstək verdi ki, bu heç də sıradan bir uğur hesab olunmamalıdır.

Regionda davamlı sülhün təmin edilməsində, münaqişənin aradan qaldırılmasında, regionda yaşayan bütün insanların rifahı üçün təhlükəsiz, sabit və firavan Cənubi Qafqaz qurmaqda Avropa İttifaqının maraqlı olduğuna hamını əmin etməyə çalışan Şarl Mişel heç də Ermənistanın ümidlərini, gözləntilərini doğrultmadı və məsələni uzatmaq üçün dəstək alacaqları barədə arzularını belə puç etdi. Onsuz da Azərbaycan istər Soçi görüşünə, istərsə də Brüssel görüşünə davamlı sülhün təmin edilməsi, münaqişənin aradan qaldırılması, regionda sabitlik yaratmaq niyyətini bəyan etmək məqsədi ilə qatılmışdı. Deməli, əminliklə deyə bilərik ki, nəticə etibarı ilə Şarl Mişelin ifadə etdikləri rəsmi Bakının mövqeləri ilə tam üst-üstə düşür. Yəni, bu dəfə də Azərbaycan istədiyinə nail oldu.

Onu diqqətə çatdıraq ki, Şarl Mişel bəyanatında Ermənistan və Azərbaycan arasında münaqişənin aradan qaldırılmasına çağırış etdi və bu çağırışın belə arxasında Ermənistana ünvanlanan mesajlar durur. Əvvəla bununla Aİ Prezidenti Ermənistana başa salmaq istəyir ki, Qarabağ münaqişəsi artıq keçmişdə qalıb və bununla barışmaqdan savayı ermənilərin başqa çarəsi yoxdur. Digər tərəfdən ermənilərə xatırladılır ki, Azərbaycan qalib ölkədir və bütün dünya belə bölgənin taleyi ilə bağlı qərarlar qəbul edərkən bundan sonra 44 günlük savaşın nəticələrini, Azərbaycanın qələbəsini nəzərə almaq məcburiyyətindədir. Dolayısı ilə Ermənistana xatırladılır ki, Azərbaycan yeni reallıqlar yaradıb, hansıki bununla Avropa İttifaqı da razılaşmaya bilmir və ermənilərin də bununla razılaşması yeganə çıxış yoludur.

Bu yaxınlarda on erməni məhbusun Azərbaycan tərəfindən azad edilməsini Ş.Mişelin alqışlaması da diqqət çəkən məqamdır. Aİ Prezidenti məhbusların azad edilməsini alqışlamaqla, əslində, humanitar məsələlərin həllinin vacib əhəmiyyət daşıdığına diqqəti cəlb edir və bununla yanaşı nəzərə çatdırır ki, rəsmi Bakının humanist mövqeyi təqdirəlayiq hesab olunur. Eyni zamanda bu ondan xəbər verir ki, Aİ Prezidenti bununla da rəsmi Bakının mövqeyini dəstəkləyir. Şarl Mişelin məhbus və əsirlərin azad edilməsinə, qaytarılmasına xüsusi önəm verdiyini, alqışladığını bəyan etməsi daha fərqli, diqqət çəkən məqamdır. Nəzərə alsaq ki, Birinci Qarabağ müharibəsində Azərbaycan tərəfindən 4000 nəfərə qədər itgin düşən azərbaycanlı var, deməli, Aİ Prezidentinin məhbus və əsirlərlə bağlı fikirlərindən belə məlum olur ki, o, həmin insanların da taleyi, azad olunması, qaytarılması ilə bağlı Ermənistan tərəfinə ciddi mesajlar verib, hansıki bu da bizim Brüssel görüşündən əldə etdiyimiz uğurlar sırasındadır.

Cənubi Qafqazda sülhün təmin edilməsi üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilməsi də Azərbaycanın təklif etdiyi sülh müqaviləsinə Aİ tərəfindən dəstəkdir. Bir sözlə, Şarl Mişel açıq şəkildə bəyan edir ki, Avropa İttifaqı Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin imzalanmasının tərəfdarıdır. Yəni, Ermənistan üz tutduğu Brüsseldən də dəstək ala bilmir, əksinə, erməni baş nazirinə başa salınır ki, onun boyun qaçırması, əngəllər axtarması deyil, Azərbaycanın sülh müqaviləsi təklifi dəstəklənir. Deməli, sülh müqaviləsinin imzalanması barədə Aİ-nin mövqeyi bəlli oldu və bu mövqe birbaşa rəsmi İrəvana bəyan edildi. Bəyan edildi ki, Azərbaycan öz təklifində haqlıdır və bundan ermənilər üçün qaçış yoxdur. Dolayısı ilə Aİ Prezidenti ona sığınmaq istəyən Paşinyana başa saldı ki, o və onun rəhbərlik etdiyi qurum Ermənistanın deyil, Azərbaycanın tərəfindədir.

Artıq Ermənistan yaxşıca əmin oldu ki, nə Rusiya, nə də Avropa İttifaqı dəstək olmaq iqtidarında deyil. Paşinyan da öz növbəsində əmin oldu ki, nə Soçi, nə də Brüssel görüşü ona tələblərdən boyun qaçırmaq şansı vermədi. Əmin oldu ki, Rusiya kimi Qərb də Azərbaycanı dəstəkləyir və ölkəmizin mövqelərini müdafiə edir. Daha dəqiq desək, dəstəkləmək, müdafiə etmək məcburiyyətindədir. Bunu da, bu məcburiyyət qarşısında olduqlarını da bir-birinin ardınca keçirilən görüşlər təsdiqlədi. Bütün bunlar da təbii ki, səbəbsiz deyildi, əbəs yerə ola bilməzdi və müəyyən məqamlardan asılı idi ki, bu da Azərbaycanın qələbələri, hərb meydanının ardınca diplomatik müstəvidə uğurları, zəfərləri sırasında hesab olunur.

Bilirik ki, xristian həmrəyliyi deyilən bir təəssübkeşlik dünyada mövcuddur və hər dəfə bu təəssübkeşliyin, nəticədə də ikili, ədalətsiz yanaşmanın şahidi olmuşuq. Hər dəfə konkret faktlar, arqumentlər ortaya qoyulsa da ermənilərin uydurmaları nəzərə alınırdı və böhtan xarakterli iddiaları, yalanları belə az qalırdı ayaq tutub yerisin. Bunun da səbəbi bəlli idi. Bəlli idi ki, heç bir xristian ölkəsi xristian dövləti olan Ermənistanı yox, müsəlman ölkəsi olan Azərbaycanı dəstəkləməkdə maraqlı deyil. Bunu az qala açıq-aşkar bəyan edirdilər. Maraqlıdır, niyə indi biz bunu müşahidə etmədik? Niyə artıq dəfələrlə biz bunun əksini müşahidə etdik? Məsələn, sonuncu görüşdə, Brüssel görüşündə niyə buna şahid olmadıq? Həqiqətən də çox düşündürücü bir məqamdır və bunun bir səbəbi olduğu da istisna edilə bilməz.

Bəli, məsələ burasındadır ki, xristian həmrəyliyi fonunda belə artıq həmin o xristian dövlətləri Ermənistana kömək edə bilmirlər. Artıq ikili standartlar, ikili yanaşmalar sərgiləyə bilmir, ədalətsiz yanaşma ortaya qoya bilmirlər. Çünki, bu xristian həmrəyliyini üstün tutub ədalətsizliyə rəvac verən ölkələr belə Azərbaycan həqiqətlərini təkzib edə, ölkəmizin, ölkə başçımızın haqlı olduğunu inkar edə bilmirlər. Səbəb də bəllidir. Əvvəla, Azərbaycan 44 günlük müharibənin məntiqi nəticəsi ilə, qələbəsi ilə sübut etdi ki, heç də Ermənistanla müqaisə olunan deyil və dəfələrlə güclü bir dövlətdir, öz haqq və hüquqlarını da müdafiə etmək, sərhədlərini, ərazi bütövlüyünü qorumaq, ələlxüsus öz problemini özü həll etmək iqtidarında, əzmindədir. Yəni, istənilən ölkənin, istənilən beynəlxalq təşkilatın mövqeyindən asılı olmayaraq bundan sonra da öz haqqını müdafiə edə bilər və edəcək. Ermənistandan fərqli olaraq, bu məsələdə də Azərbaycanın kimə isə ehtiyacı olmadığını tam şəkildə hər kəs anladı. Bir sözlə, Avropa İttifaqının timsalında beynəlxalq təşkilatlar və hərhansı xristian dövlətləri anladılar ki, onların mövqeləri Azərbaycanın iradəsinə təsir edən deyil, biz öz hüquqlarımızı müdafiə etmək əzmindəyik. Belə olan halda müqavimət belə göstərməyin mənasız olduğunu onlar dərk etmək məcburiyyətində qaldılar.

Digər tərəfdən Avropa İttifaqının timsalında bütün beynəlxalq təşkilatlar da, Ermənistanı bir xristian təəssübkeşliyi fonunda müdafiə etməyə çalışan xristian dövlətləri də gördülər ki, Azərbaycan tam hüquqi şəkildə davranır, beynəlxalq hüququ, ədaləti, humanizmi rəhbər tutur və tələblərində də haqlı olduğunu kimsənin təkzib etmək yolu qalmır. Bir sözlə, ölkəmizin mövqelərini dəstəkləməkdən başqa çarə qalmır. Ən azından həmin ölkələr öz imici, nüfuzu naminə də olsa buna məcburdurlar. Məcburdurlar ki, dəstəkləsinlər və bu şəraiti də Azərbaycan öz zəfəri, öz qələbəsi, uğurlu inkişafı, qüdrəti, müzəffər Ali Baş Komandanının qətiyyəti, siyasi iradəsi, Azərbaycan Ordusunun şücaəti, xalqımızın milli həmrəyliyi, qüruru hesabına qazanıb. Deməli, ölkəmizin 44 günlük zəfər savaşının ardınca Azərbaycanın diplomatik uğurlarını, qələbələrini hər kəs etiraf etmək məcburiyyətində qalır. Bəli, Brüssel görüşü Azərbaycanın mövqelərinin müdafiə edilməsi, uğurlarımızın, istər hərb meydanında, istərsə də diplomatik meydanda qələbələrimizin etirafının təntənəsi oldu. Avropa bu uğurlarımızı etiraf etmək, qəbul etmək, hətta mövqelərimizi dəstəkləyərək müdafiə etmək məcburiyyətində qaldı ki, bu da bizim ən böyük uğurlarımızdan hesab olunur.

Azərbaycanın Brüsseldə qazandığı diplomatik qələbəsi, növbəti uğuru barədə Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev münasibət bildirib və Brüsseldə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü zamanı müzakirə edilən məsələlərin Azərbaycan üçün məqbul olduğunu və bunun ölkəmizin başçısının qətiyyətli mövqeyinin nəticəsi kimi qiymətləndirildiyini dilə gətirib.

Komitə sədri qeyd edib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi, Ermənistan-Azərbaycan dövlət sərhəddinin delimitasiyası, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələlərinin görüşdə geniş müzakirə edilməsi və razılığın əldə olunması göstərir ki, artıq Ermənistan reallıqları dərk etməkdə, Azərbaycanın gücünü, beynəlxalq aləmdə qazandığı mövqeyini başa düşməkdədir.

"Bu görüş həm də Avropa İttifaqının Azərbaycanla yaxınlaşmasına göstərdiyi cəhdin və dövlətimizin haqq işinə verdiyi dəstəyin ifadəsidir. Artıq Avropa ölkələri Azərbaycan Prezidentinin demokratiya, sülh və azadlıq, qarşılıqlı əməkdaşlıq çağırışlarına önəm verməkdə, bunun əməli işdə həyata keçirildiyini görməkdə və hadisələrin gedişinin fərqindədirlər.

Azərbaycan torpaqları uzun müddət erməni təcavüzkarlarının işğalına məruz qalıb, şəhər və kəndlərimizin viran edilməsinə, müharibədə möhtəşəm qələbə qazanılmasına, erməni silahlı qüvvələri üzərində tam qələbə qazanılmasına baxmayaraq, yenə də Prezidentimiz sülhə, mehriban qonşuluğa çağırışlar etməkdədir. Əlbəttə bu, dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməlidir və ədalət bərpa olunmalıdır. Brüsseldə keçirilən üçtərəfli görüş, elə bilirəm buna nümunədir və Azərbaycan üçün çox faydalıdır", deyə Tahir Rzayev bildirib.

Göründüyü kimi, həqiqətən də reallıqlar göz önündədir və bunu inkar etmək mümkün deyil. Ermənistan cəmiyyətinin, erməni baş nazirinin sığındığı Qərb belə bunu edə bilmir və artıq müəyyən etiraflar edir. Artıq Avropada, Brüsseldə ölkəmizin həqiqətləri həm dərk edilir, həm də qəbul edilir. Yəqin ki, Qoca Qitədə bunun əksini düşünməyin faydasın, eləcə də mənasız olduğunu anlayıblar. Əks halda təmtəraqlı şəkildə Brüsselə yollanan Ermənistanın baş naziri Nikol Paşinyan bu görüşdən əli ətəyindən uzun ayrılmazdı və sifət ifadələri belə onun narazı qaldığını göstərir, hansı ki, bu özü də məğlubiyyətin qəbul edilməsi etirafıdır. Məntiqi olaraq belə bir nəticə ortaya çıxır ki, artıq Avropa həqiqəti dərk etməkdədir və Azərbaycanın mövqeyinin ədalətli mövqe olduğu qənaətinə gəldiyini belə etiraf edir.

***İnam Hacıyev***

# “Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşıdır”

## Bakıda Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri mövzusunda konfrans keçirilib

Dünən ADA Universitetində "İnteqrasiya prosesi çərçivəsində Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri" mövzusunda konfrans keçirilib. Konfransda iştirak edən ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin Brüsseldə keçirilən görüşdən çox şey gözlədiklərini bildirib. "Biz regionda sabitliyin təmin olunması baxımından Rusiyanın dəstəyini həmişə hiss etmişik və ümid edirəm ki, bundan sonra da görəcəyik", - deyə rektor əlavə edib.

Azərbaycan-Rusiya əlaqələrinin dərin köklərə malik olduğunu deyən Hafiz Paşayev innovasiya və startaplardan danışıb, səmərəli, müştərək işlər həyata keçirməyin, tədqiqatlar aparmağın vacibliyini vurğulayıb. Diqqətə çatdırıb ki, tədqiqatların aparılması elm və tərəqqi üçün faydalıdır. İnteqrasiya prosesi çərçivəsində Azərbaycan-Rusiya mütəxəssislərinin elm sahəsində müştərək tədqiqatlar aparması çox vacibdir.

Rusiya və Azərbaycanın çox sıx münasibətlərə malik olduğunu bildirən Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuk inteqrasiya prosesi çərçivəsində ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsini reallıq kimi qiymətləndirərək deyib: "Azərbaycanın regionda Avropanı Asiya ilə birləşdirəcək kommunikasiyanın açılması təklifi reallaşır və bu, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri baxımından mühüm rol oynayacaq. Ölkələrimiz arasında dərin tarixi bağlılıq qarşıya qoyulan məqsədlərə çatmağımıza imkan verəcək. Məqsədimiz iqtisadiyyatın inkişafı üzrə vahid platforma yaratmaqdır. Bu, ticarət mübadiləsi üçün faydalı olacaq".

Beynəlxalq razılaşmaları diqqətdə saxlamağın çox mühüm olduğunu qeyd edən A.Overçuk MDB-yə üzv ölkələr arasında münasibətlərin yeni müstəviyə qaldırılmasının vacibliyini vurğulayıb.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov hazırda ölkələrimiz arasında əlaqələrin inkişafının intensiv dövrü olduğunu qeyd edib. Deyib ki, əsas məsələ - regionda sabitlik təmin olunub və biz artıq münasibətlərin sonrakı inkişafı barədə danışırıq. Səfir konfransın Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da dərinləşməsinə və iqtisadi əlaqələrin daha da inkişafı etməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.




Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev diqqətə çatdırıb ki, Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər yaradılmasından keçən 30 il ərzində ikitərəfli əlaqələr daim inkişaf edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin siyasi iradəsi, onların şəxsi dostluq münasibətləri sayəsində bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Ölkələrimiz arasında münasibətlərin çoxəsrlik mehriban qonşuluq, dostluq və əməkdaşlıq ənənələrinə əsaslandığını qeyd edən Şahin Mustafayev bildirib ki, son iki ildə dünya birliyinin üzləşdiyi yeni reallıqlar - koronavirus pandemiyası və onun nəticələri, silahlı münaqişələr, dünya bazarında enerji daşıyıcılarının qiymətlərinin sürətlə artması, mövcud logistika zəncirlərinin tarazlığının pozulması, dünya ticarət siyasətinin volatilliyi və ticarət müharibələri ticari-iqtisadi və humanitar sahələrdə beynəlxalq əməkdaşlığın ənənəvi formalarına təsir göstərir, lakin bu amillər, eyni zamanda, yeni imkanlar yaradır.

Ş.Mustafayev vurğulayıb ki, yeni reallıqlar çərçivəsində əsas səylər 2024-cü ilə qədər olan dövrdə Azərbaycan-Rusiya qarşılıqlı əlaqələrinin əsas istiqamətlərinin inkişafına dair planın reallaşdırılması üzərində cəmləşib. Ticarətdə mövcud maneələrin aradan qaldırılması, rəqəmsal iqtisadiyyatın və nəqliyyat infrastrukturunun inkişafı, elm tutumlu birgə istehsalatlar yaradılması, qarşılıqlı turist mübadiləsinin artırılması və başqa tədbirlər nəzərdə tutulan yeddi yol xəritəsi çərçivəsində əməkdaşlıq proqramı fəal həyata keçirilir. Diqqətə çatdırılıb ki, cari ilin yanvar-oktyabr ayları ərzində Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi nikbin olmağa əsas verir - bu sahədə təqribən 7 faiz (2,35 milyard dollar) artım qeydə alınıb. Beləliklə, Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşı kimi qalır. Qarşılıqlı investisiyaların dinamikası da nikbinlik doğurur. Rusiya Azərbaycan iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyub. Öz növbəsində, Rusiya iqtisadiyyatına Azərbaycan investisiyalarının həcmi 1,2 milyard dollardan çox olub. Azərbaycanda Rusiya kapitalına əsaslanan 1110 müəssisə qeydiyyata alınıb.

Rusiya Xalqlar Dostluğu Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri İ.Andronova, ADA Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin dekanı Ə.Vəliyev, Avrasiya İqtisadi Komissiyasının İnteqrasiyanın inkişafı Departamentinin direktor müavini, V.Yanutenyok, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru E.Məmmədov, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi səlahiyyətli nümayəndəsi S.Yejov, Avrasiya İqtisadi Komissiyasının Daxili baxarın tənzimlənməsi departamentinin direktor müavini K.Elikbaev, Avrasiya İnkişaf Bankının nümayəndəsi A.Malaxov, "Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri İ.Vəlizadə, ADA Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin dosenti L.Cumayeva və siyasi icmalçı, Azərbaycandakı Rus icmasının sədr müavini A.Lavrina mövzu ətrafında məruzələrlə çıxış ediblər. Konfrans müzakirələrlə davam edib.

# Dövlət medianın mütərəqqi dəyərlər əsasında inkişafında maraqlıdır

## "Media haqqında" qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ deməkdir



**Söz azadlığı və fikir plüralizmi dünyada demokratik inkişafın əsas meyarlarından sayılır. Demokratik inkişaf yolu seçən Azərbaycanda da həyata keçirilən dövlət siyasətinin istiqamətlərindən birini medianın sərbəst fəaliyyəti üçün şəraitin yaradılması təşkil edir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra bəzi məhdudiyyətlərdən, senzuradan xilas edilən Azərbaycan mediası ötən dövrdə mühüm irəliləyişə nail olub.**

Xüsusilə də, Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfər ölkəmizdə hər bir sahədə yeni reallıqlar yaratdı. Məhz bu yeni reallıqlardan irəli gələrək ölkəmizdə medianın tənzimlənməsi üçün yeni qanun layihəsinin hazırlanması zərurətini əsas götürərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Media haqqında" qanun layihəsinin hazırlanması barədə tapşırıq verildi. Və dekabrın 10-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında ictimai müzakirəyə çıxarılan Cənab Prezident İlham Əliyevin ölkədə medianın inkişafına xidmət edən "Media haqqında" qanun layihəsi bir daha milli informasiya məkanında dövlət üçün prioritet olduğunun göstəricisidir.

Media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" qanun layihəsinin hazırlanması dövlətin siyasi iradəsini təcəssüm etdirir.

Qeyd edək ki, bu gün bütün dünyada məsuliyyətli media yalnız qanunların yaxşı işlədiyi şəraitdə inkişaf edir. Hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu 1999-cu ildə qəbul olunub və bu qanuna indiyədək 79 dəfə dəyişiklik edilib, bir sıra maddələri tamamilə çıxarılıb. Bununla belə, bu qanun müasir çağırışlarla uzlaşmır. Məhz bu baxımdan da media və informasiya sahəsində baş verən sürətli dəyişikliklərə əsasən, yeni qanun - "Media haqqında" qanun layihəsinin qəbulunu tarixi zərurətə çevirib.

9 fəsil, 78 maddədən ibarət olan qanun lahiyəsində jurnalistlərin fəaliyyətinə dair məsələlər, o cümlədən, Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq vəsiqənin verilməsi, onlara bəzi imtiyazların müəyyənləşdirilməsi, dövlət qurumlarında jurnalistlərin akkreditasiya olunması qaydaları, jurnalistin peşəkar fəaliyyəti üçün şəraitin yaradılması və digər məsələlər müvafiq maddələrdə öz əksini tapıb. Həmçinin, qanun layihəsində jurnalistlərin Media Reyestrinə daxil edilməsi nəzərdə tutulur və bu, könüllü xarakter daşıyır. Layihəyə əsasən, Medianın İnkişafı Agentliyi tərəfindən jurnalistlərə xüsusi vəsiqə veriləcək. Ancaq jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə biləcək. Eyni zamanda, qanuna əsasən, çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur.

Bir sözlə, bütün bunlar onu göstərir ki, layihəyə daxil edilmiş mütərəqqi normalar sayəsində ölkə mediasında şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinin əsaslarının təmin edilməsi, ictimaiyyət və media arasında qarşılıqlı etimadın gücləndirilməsi mümkün olacaq. Ümumiyyətlə, qanun layihəsi ölkədə KİV-in inkişafı üçün əlverişli imkanlar yaratmaqla yanaşı, həm də qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ təsəvvürlərin aradan qaldırılmasına şərait yaradacaq, ictimaiyyət və media arasında qarşılıqlı etimadın güclənməsini təmin edəcək. Bir sözlə, bütün bunlar onu deməyə əsas verir ki, "Media haqqında" yeni qanun məhz məsuliyyətli medianın inkişafına təkan verən mütərəqqi sənəd olmaqla yanaşı, jurnalistikaya və eyni zamanda, jurnalistlərə qarşı formalaşan neqativ təsəvvürləri aradan qaldıracaq, xalqla, ictimaiyyətlə media arasında inamın, etimadın gücləndirilməsini təmin edəcək.

**RƏFİQƏ HÜSEYNOVA**




# “ASAN xidmət”ə

## beynəlxalq miqyasda maraq artır

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində dinamik inkişaf edən Azərbaycan müasir çağırışlarla səsləşən innovativ təşəbbüsləri ilə də dünyanın diqqət mərkəzindədir. Dövlət başçısı İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və bu qurumun "ASAN xidmət" mərkəzləri Azərbaycanda innovativ islahatlar sahəsində əsl yenilik oldu. İnformasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə etməklə, fəaliyyət göstərən "ASAN xidmət" mərkəzləri ölkəmizdə vətəndaş-dövlət qulluqçusu münasibətlərini yeni səviyyədə qurmağa, şəffaflığı təmin etməyə, bürokratik əngəlləri, mümkün korrupsiya və bu qəbildən olan digər mənfi halları aradan qaldırmağa imkan verib. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur ki, bu vətəndaş məmnunluğuna səbəb olub. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışların birində bildirib ki, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir: "ASAN xidmət"in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. Dövlət başçısı bildirib ki, ictimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Bu gün qeyd olunan hallar Azərbaycanda tamamilə aradan qaldırılıb. Prezident İlham Əliyev bildirib ki, "Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq".

### “ASAN XİDMƏT” TƏCRÜBƏSİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNDƏ ÖYRƏNİLƏCƏK

Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Fəaliyyətə başladığı zamandan bu günə qədər bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirirlər: "BMT "ASAN"ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir". "Uğur 2013" "səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə" nominasiyasının qalibi olub. İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikatı alıb. "ASAN xidmət" BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülərək, xüsusi mükafat və diploma təltif edilib. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən, qabaqcıl idarəetmə üzrə "ISESCO-nun ASAN mükafatı" təsis olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var. Dövlət başçısı çıxışlarının birində vurğuladığı kimi, "ASAN xidmət" Azərbaycan brendidir, Azərbaycanın intellektual məhsuludur: "O məhsul ki, bu gün biz onu xaricə ixrac edirik. Bir neçə ölkə "ASAN xidmət"lə maraqlanır. Bizim "ASAN xidmət" bir neçə ölkə ilə müvafiq sənədlər imzalayıb və artıq bir neçə ölkədə "ASAN xidmət" mərkəzləri yaradılır".

Şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə Azərbaycanda səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunduğundan bu bir nümunəyə çevrilib. Artıq "ASAN xidmət" təcrübəsi Birləşmiş Ərəb Əmirliklərində öyrəniləcək. Əlbəttə ki, bu, təqdirəlayiqdir və bu modelin öyrənilməsi vətəndaşlara yüksək keyfiyyətli xidmətlərdən qaynaqlanır. Yarandığı zaman məsafəsində "ASAN xidmət" öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır. "ASAN xidmət"in tərkibinə "ASAN Kommunal", "ASAN həyat", ABAD - Ailə Biznesinə ASAN Dəstək layihəsi də daxildir. ABAD layihəsi dövlət ailə təsərrüfatlarının inkişafında xüsusi rol oynayır. Bir sözlə, "ASAN xidmət" mərkəzlərində vətəndaşların müraciətlərinə daha qısa zaman kəsiyində baxılması, onlara daha səmərəli xidmətlərin göstərilməsi və dövlət xidmətlərinin sadələşdirilməsi üçün hər cür şərait yaradılıb. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət" qısa müddətdə uğur qazanıb və dünyaya nümunə olan modelə çevrilib.

***ZÜMRÜD BAYRAMOVA***

# “Azərbaycan və Ukrayna prezidentləri arasında sıx şəxsi münasibətlər iki ölkə əlaqələrinin inkişafına müsbət təsir edir”




Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev və Volodimir Zelenski arasında sıx şəxsi münasibətlər iki ölkə əlaqələrinin inkişafına müsbət təsir edir. Azərbaycan və Ukrayna bir çox sahələrdə uğurla əməkdaşlıq edir. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Ali Radasının deputatı Svyatoslav Yuraş söyləyib. Deputat hesab edir ki, iki ölkə arasında əlaqələr 2022-ci ildə də genişlənəcək, birgə regional layihələr həyata keçiriləcək.

"Ukrayna və Azərbaycanın strateji tərəfdaşlığı ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın yüksək səviyyədə olmasının göstəricisidir. Bu, o deməkdir ki, Azərbaycan ilə Ukrayna arasında bütün sahələrdə heç bir problem yoxdur. Ukrayna Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır", - deyə Svyatoslav Yuraş əlavə edib. Onun sözlərinə görə, iki ölkə arasında ticarət dövriyyəsinin artırılması məqsədilə mövcud olan potensialdan tam istifadə edilməsi üçün əlverişli mühit mövcuddur. Ona görə də iş adamları birgə layihələrin həyata keçirilməsində maraqlı olmalıdır.

# İqtisadçı-ekspert: “Azərbaycanla Aİ-nı bağlayan məsələ Cənub Qaz Dəhlizidir”



Cari ilin dekabrın 15-də Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığının 6-cı Zirvə Görüşündə Şərq Tərəfdaşlığı ölkələri və Avropa İttifaqına üzv ölkələrinin bir bəyannaməsində müəyyən iqtisadi məqamlar da qeyd olunmuşdur. Bu sözləri SİA-ya verdiyi açılamasında iqtisadçı-ekspert Aslan Əzimzadə deyib. O qeyd edib ki, Şərq Tərəfdaşlığı regionunda mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsi o cümlədən nəqliyyat əlaqələrinin gücləndirilməsi məsələləri buna misaldır.

"Bu gün nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi ölkələr arasında ticarətin də inkişafını şərtləndirir ki, bu da birbaşa iqtisadiyyata müsbət təsir göstərir. Eynilə biz burada Zəngəzur dəhlizini misal göstərə bilərik. Belə ki, bu dəhliz həm region ölkələri üçün həm də Avropa ölkələri üçün olduqca önəmlidir. Belə ki, Zəngəzur dəhlizi vasitəsilə Avropa ölkələrinin məhsullarının Orta Asiya bazarlarına ixracı daha asanlaşacaqdır. Digər tərəfdən, burada Azərbaycan da tranzit ölkə kimi yüksək iqtisadi dividendlər əldə edəcəkdir. Bütün bu məqamlar da tamamilə Azərbaycanın post-münaqişə gündəliyinə uyğun olmaqdadır.

Digər tərəfdən, bu gün Azərbaycanla Avropa İttifaqını bağlayan başlıca məsələ Cənub Qaz Dəhlizidir. Bu layihə Avropada enerji təhlükəsizliyi problemini həll etmək üçün olduqca önəmlidir. Bu layihənin başa çatmasının alqışlanması məhz Avropa İttifaqının Azərbaycanın böyük dəstəyi ilə ərsəyə gəlmiş qlobal layihəni dəstəkləməsinin ifadəsidir", deyə Aslan Əzimzadə bildirib.

***İnam Hacıyev***

# Tibbi, yoxsa parça maska:

## MASKA SEÇİMİ NECƏ OLMALIDIR?

"Digər dünya ölkələrinə nəzər yetirsək, insanların müxtəlif dizaynda və formada olan tibbi maskalardan istifadə etdiyini görmərik". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin üzvü, həkim Müşfiq Məmmədli deyib. Onun sözlərinə görə, sadəcə olaraq istifadə olunmuş materiallar tibbi göstəricilərə malik olmalıdır: "Yəni burada müəyyən ağıllı texnologiyaların istifadəsi ilə nano parçalardan istifadə olunur. Həmin bu parçalardan da bir neçə dəfə istifadə etmək mümkündür. Yəni həmin parçadan hazırlanmış maskalar müvafiq olaraq yuyulduqdan sonra istifadə edilə bilər. Maska sadə parçalardan tikilə bilməz. Çünki maskaya istifadə edilmiş parçaların hissəciyində müxtəlif törədicilərin hopub qalma ehtimalı çox yüksəkdir. Bu baxımdan parça maskalar tibbi texnologiyaya uyğun hazırlanır. Təbii ki, müxtəlif dizaynlı parçalardan istifadə etmək olar. Amma bunların da hər biri tibbi texnologiya ilə hazırlanmalıdır. Sadəcə müxtəlif bəzək üçün istifadə edilən maskaların tibbi cəhətdən ciddi bir əhəmiyyəti və qoruyucu bir xüsusiyyəti yoxdur".



***Arzu Qurbanzadə***



# "Biz Cənubi Qafqaz üçün sülh istəyirik,

## sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik"

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Ərazi bütövlüyümüzün bərpa edilməsi, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün Prezident İlham Əliyevin tutduğu qətiyyətli mövqe, ordu quruculuğuna, hərbi-sənaye kompleksinin inkişafına göstərdiyi diqqət və qayğı 44 günlük Vətən müharibəsində öz sözünü demiş oldu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoydu və dövlət başçısının dünyanın aparıcı KİV-lərinə verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu. Sülhsevər siyasət yürüdən Azərbaycan münaqişənin sülh, danışıqlar yolu ilə uzun müddət həllinə nail olmağa çalışsa da, mümkün olmadı. Ermənistan Azərbaycan Prezidenti İlham Əliyevin sülh çağırışlarına hərbi təxribatlarla cavab verdi. Azərbaycanın 44 gün ərzində apardığı əks-hücum əməliyyatları Ermənistan üçün acı sonluqla yekunlaşdı. XXI əsrin müharibəsini aparan Azərbaycan düşmən üzərində tarixi qələbəsini qazandı, doğma Qarabağımız əsl sahiblərinə qaytarıldı. Bu gün də qalib xalq olaraq ölkəmizə maraq sonsuzdur. Müharibədən sonrakı durum, Azərbaycanın mövqeyi diqqətdə saxlanılır. Bu Azərbaycanın dünya miqyasında olan yüksək imicindən qaynaqlanır. Əlbəttə ki, dövlət başçısı bütün çıxışlarında, müsahibələrində ölkəmizin haqq mövqeyini sərgiləyir və sülhsevər siyasəti dünya ictimaiyyətinə mesaj olaraq çatdırılır. Tarixi ədalət bərpa edilib. "Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik". Bu fikirləri Prezident İlham Əliyev İspaniyanın "El Pais" qəzetinə müsahibəsində bildirib: "Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular da bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik".

### "AZƏRBAYCAN ERMƏNİSTANLA SÜLH DANIŞIQLARINA VƏ SÜLH RAZILAŞMASI ÜZƏRİNDƏ İŞLƏMƏYƏ BAŞLAMAĞA HAZIRDIR"

Bu gün artıq müharibənin başa çatmasından bir il bir ay ötüb. Azərbaycan öz sülhsevər siyasətini davam etdirir. Müharibədən sonra təkcə Cənubi Qafqazda deyil, eləcə də dünyada mövqeyini gücləndirən Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənir. "Mən dəfələrlə açıq bəyanat vermişəm ki, Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır. Bu vaxta kimi Ermənistan rəhbərliyindən heç bir cavab verilməmişdir" - deyən Prezident bildirib ki, mən bu cür bəyanatları altı aydan çoxdur ki, dəfələrlə etmişəm: "Bu, onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir". Dövlət başçısı bildirib ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik. Bunun atəşkəs razılaşması yox, tam sülh razılaşması olacağını diqqətə çatdırıb: "Lakin ümid edirəm ki, yeqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər".

"Ermənistan sülh razılaşması üzərində işləməli və XXI əsrdə normal davranışa riayət etməlidir. Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də, biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik",- deyə Prezident İlham Əliyev bildirib. Dövlət başçısı Azərbaycanın münasibətləri normallaşdırmağa hazır olduğunu, lakin hələlik Ermənistan tərəfdən heç bir müsbət işarə alınmadığını bildirərək deyib: "Ermənistan hökumətinin azərbaycanlılara qarşı nifrətin aşılanmasına əsaslanan ictimai rəyin arxasında dayanmaması və normallaşma prosesində öndə getməsi vacibdir. İctimai rəy formalaşdırılmalıdır. Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla əlaqələrin normallaşdırılması, Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır. Düşünürəm ki, əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, bizim irəliləyiş üçün şansımız var". Prezident İlham Əliyev bir daha vurğulayıb ki, Azərbaycanın mövqeyi açıq-aşkardır: "Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik".

### "ERMƏNİSTAN AVTOMOBİL YOLUNUN AÇILMASINA ETİRAZ EDİRDİ, LAKİN İNDİ BİZ ONLARI BUNUN QAÇILMAZ OLDUĞUNA İNANDIRA BİLMİŞİK"

"Ermənistanla münasibətləri normallaşdırmaq üçün Siz sərhədləri açmağa hazırsınızmı və bunun baş verməsi üçün şərtlər nədir?"-sualına gəlincə isə dövlət başçısı "Bəli, biz sərhədləri açmaq istəyirik" - deyə bildirib. "Bu vaxta kimi Azərbaycanın, Ermənistanın və Rusiyanın Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində bir neçə dəfə danışıqlar baş tutub. Bu işçi qrupunun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır. Danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub. İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır". Əlbəttə ki, kommunikasiyaların açılması, həm Azərbaycanın, həm Ermənistanın və digər dövlətlərin, ümumilikdə regionda hamının marağındadır. Kommunikasiyaların açılması bölgədə yeni əməkdaşlıq platformalarının yaradılmasına gətirib çıxaracaq ki, bu da regionda uzunmüddətli sülhün, əmin-amanlığın təmin olunmasında çox mühüm rol oynayacaq. Zəngəzur dəhlizinin açılması, ilk növbədə, Naxçıvanla Azərbaycanın əsas hissəsini birbaşa birləşdirən nəqliyyat dəhlizi olacaq. Bu dəhlizin açılması Azərbaycanla qardaş Türkiyənin quru və dəmir yolu xətti ilə birbaşa birləşməsini həyata keçirəcəkdir. Dövlət başçısı bildirib ki, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik: "Beləliklə, bu, baş verəcək. Yeri gəlmişkən, hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb".

### "TARİXİMİZDƏKİ BÜTÜN BU FACİƏVİ HADİSƏLƏRƏ, DAĞINTILARA, XOCALIDAKI SOYQIRIMINA BAXMAYARAQ, BİZ SƏHİFƏNİ ÇEVİRMƏLİYİK"

44 günlük Vətən müharibəsində dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini gördü. Mülki, dinc insanların hədəfə alınması, yaşayış yerlərinin dağıdılması erməni vəhşiliyini bir daha dünyaya nümayiş etdirdi. 30 ilə yaxın işğalda qalaraq dağıdılan, talan edilən ərazilərimizdə bu gün Cənab Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində həyat yenidən dirçəlir. Həmin ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi üçün irimiqyaslı layihələr reallaşdırılır. Ermənі barbarlığı nəticəsində məhv edilmiş tarixi mədəni abidələrimiz bərpa olunur: "30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə-yeksan edilib"- deyən Prezident bildirib ki, Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər: "Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerlə-yeksan edilib və bunlar - bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Yerdə qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar".

Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hisslərinin olmasının təbii olduğunu diqqətə çatdıran dövlət başçısı bildirib: "Mən "xeyr, müharibə başa çatıb, indi gəlin dost olaq" desəydim, bu, səhv olardı. Bu, vaxt aparacaq. Lakin məsələ dövlət siyasətindədir. Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik. Əgər gələcəyə baxmaq, sabit vəziyyət yaratmaq, yeni müharibə riskini tamamilə minimuma endirmək istəyiriksə, səhifəni çevirməliyik".

*Nəzakət ƏLƏDDİNQIZI*

# Media Qanunu: Yeni trendlər, yeni çağırışlar nələri dəyişdirir?

**Azərbaycan mediası və jurnalistləri dünya standartlarına uyğunlaşmalı, yeni çağırışlara cavab verməlidir, Media haqda Qanun məhz bunu təmin etmək üçün hazırlanıb**



*Bəhruz Quliyev*
*"Səs" Media Qrupun rəhbəri*



**"Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi bir müddətdir ki, media məkanında və bir neçə gündür parlamentdə müzakirə olunur. Layihə Milli Məclisə təqdim olunmamışdan qabaq qanun üzərində media ekspertlərinin iştirakı ilə işlənilib və jurnalistlərin bir sıra əsaslı təklifləri də nəzərə alınıb. Parlament müzakirəsi zamanı isə deputatlar qanunla bağlı rəylərini bildirib, bəziləri isə müəyyən təkiflər veriblər. Bu yazıda Media haqda Qanunun hazırkı dövrdə nə dərəcədə aktual olduğu, belə bir qanuna nə dərəcədə ehtiyac duyulduğu, Qanunun müddəalarının media məkanında və jurnalistlərin fəaliyyətində nələrə səbəb olacağı haqda fikirlərimi bildirmək istəyirəm.**

## Həyat dəyişir, qanunlar da yeni şərtlərə uyğunlaşır

Əvvəla qeyd etmək istəyirəm ki, dövrün tələbləri ilə media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" yeni qanunun qəbul edilməsinə həqiqətən böyük ehtiyac var. Dövrün çağırışı, son illərdə texnologiyanın inanılmaz inkişafı, cəmiyyətimizdə və dünyada yeni şəraitin yaranması media məkanında vahid, mükəmməl, effektiv bir Qanuna ehtiyac duyulduğunu heç kim inkar edə bilməz.

1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bu günə kimi dəfələrlə dəyişdirilib və müasir çağırışlarla uzlaşmır. Keçən 20 ildən çox müddətdə çox şey dəyişib, media anlayışına yeni baxışlar yaranıb, sosial media adlı bir sektor yaranıb, televiziya sahəsində yeni bir sistem (internet TV-lər) və s. formalaşıb. Bundan əlavə keçən müddət KİV haqda Qanunun müasir tələblərə cavab vermədiyini, bir çox problemlərin yaranmasına səbəb olduğunu, medianın inkişafına artıq təkan verə bilmədiyini əyani göstərdi.

Belə bir şəraitdə dünya təcrübəsinə əsaslanaraq, inkişaf etmiş ölkələrin media qanunvericiliyinə uyğun olaraq, ölkəmizdə də yeni Media Qanununun qəbul olunması şərtdir. Bütün sahələrdə olduğu kimi, media sahəsində də bir qayda, bir qanun olmalıdır, bu sahədə neqativ halların qarşısı alınmalıdır. Çünki son illərdə cəmiyyətin mənafelərinə, dövlətin maraqlarına təhlükə yaradan media orqanları çoxalıb. Bu sahədə boşluqlardan istifadə edən xarici dairələr, həmçinin yerli dələduzlar media platformasından öz məqsədləri üçün gen-bol istifadə edirlər.

Bütün dünyada məsuliyyətli media yalnız qanunların yaxşı işlədiyi şəraitdə inkişaf edir. Azərbaycanın yeni "Media haqqında" qanun layihəsi də həm jurnalistlərin özləri, həm də ictimaiyyət fəalları tərəfindən məhz məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi qanun layihəsi kimi xarakterizə olunur. "Media haqqında" qanununu oxuduqda, qanunun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ açacağı şübhə doğurmur.

Yeni qanun layihəsi media subyektlərinin dəqiq təsnifatını verir və eyni zamanda jurnalistin sosial portretini müəyyənləşdirən vasitə kimi çıxış edir. Qanun həm də dövlət-media münasibətlərində əsas elemetlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə xidmət edəcək. Yazıda yuxarıda dediklərimizi konkret maddələr əsasında əsaslandıracağıq.

## Vahid jurnalist vəsiqəsi hansı imtiyazlar təmin edir?

Nəzərdə tutulan məsələlərdən biri də, bütün dünyada olduğu kimi, bizdə də Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin təqdim olunmasıdır. Bu, könüllülük prinsipi əsasında həyata keçirilsə də, media mühitinin sağlamlaşmasına müsbət təsir göstərəcək. İndi ortalıqda 50 mindən artıq saxta jurnalist vəsiqəsi ilə dolaşan var ki, bu da medianı gözdən salmaqla yanaşı, cəmiyyətə də problem yaradır, reketçiliyə, dezinformasiya yayılmasına şərait yaradır. Ona görə də, əsl jurnalistlərin ümumi bir reyestri olması məqsədəuyğun hesab edilir. Bir çox ölkələrdə, o cümlədən Türkiyədə bu sistem çoxdan fəaliyyət göstərir həm də effektli şəkildə. Reyestr və vahid vəsiqə əsl jurnalistlərə azad və peşəkar işləmək üçün böyük imkanlar açır, onlara bəzi imtiyazlar verir. Necəmi? Gəlin baxaq.

**Maddə 71. Jurnalist vəsiqəsi verilmiş şəxslərin imtiyazları**

71.1. Jurnalist vəsiqəsi verilmiş şəxslərin aşağıdakı imtiyazları vardır:

71.1.1. jurnalist fəaliyyətinin həyata keçirilməsi ilə bağlı dövlət və bələdiyyə mülkiyyətində olan muzeylərə, qalereyalara, habelə mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil olmaq;

71.1.2. dövlət orqanları, müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları tərəfindən akkreditasiya olunmaq;

71.1.3. əhəmiyyətli tədbirlərə dair kütləvi informasiyanın axtarılması, əldə olunması, ötürülməsi, istehsalı və yayımı məqsədilə həmin tədbirlərin keçirildiyi məkanlara bu Qanunun 72-ci maddəsinə uyğun olaraq akkreditasiya olunduğu halda daxil olmaq;

71.1.4. bu Qanunun 76.1.2-76.1.5-ci maddələrində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan yararlanmaq.

**76.1.2-76.1.5-ci maddələrdə isə deyilir;**

76.1. Media Reyestrinə daxil edilmiş şəxslər üçün aşağıdakı güzəşt və imtiyazlar müəyyənləşdirilə bilər:

76.1.1. media subyektlərinə dövlət orqanları tərəfindən rəsmi elan və sosial reklamların sifarişi;

76.1.2. media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı;

76.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təşkil edilən dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlər üzrə layihələrdə iştirakı;

76.1.4. maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;

76.1.5. sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.

Göründüyü kimi, Media Reyestrinə daxil edilən, vahid jurnalist vəsiqəsi daşıyan şəxs üçün mənfi heç nə yoxdur, əksinə xeyli faydalı məqamlar var.

## Reyestrə daxil edilməyən jurnalistlər necə olacaq?

Reyestrin olması bir çox sahələrdə nizam və rahatlıq yaradacaq- media subyektlərinin sayının müəyyənləşdirilməsi, onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsi kimi çox sahədə faydalı olacaq.

Jurnalistlərinin məlumat bazasında qeyd olunması onların fəaliyyətinin daha səmərəli təşkilini və hüquqlarının ən yüksək səviyyədə müdafiəsini təmin etmək, heç bir qanuni əsası olmadan özünü media subyekti və ya jurnalist kimi təqdim edən və qeyd olunan statusdan sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısını almaqdır.

Lakin Media Reyestrinə daxil edilməyən jurnalistlərin də fəaliyyətinə heç bir maneə nəzərdə tutulmur. Vahid jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə bilər. Qanunda təsbit olunan "jurnalist anlayışı" xidmət müqaviləsi əsasında işləyən jurnalistləri də əhatə edir. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqildirlər.

Qanun sosial şəbəkə "blogger"lərinin və bloq müəlliflərinin fəaliyyətini tənzimləmir. Onlar heç bir vahid vəsiqə almadan, əmək müqaviləsi olmadan, sərbəst şəkildə fəaliyyət göstərəcəklər. Üstəlik, media məkanında yaranacaq müsbət vəziyyət onların da işinə fayda verəcək. Bu şəxslərin peşəkar tələblərə cavab verənləri arzu etdikdə peşəkar mediada işləyə biləcək.

## Jurnalistin fəaliyyətinə dövlət təminatı

Qanunla dövlət jurnalistin sərbəst və maneəsiz fəaliyyətinə təminat verir. Müvafiq maddəyə baxaq.

**Maddə 6. Jurnalist fəaliyyətinin təminatı**

6.1. Jurnalistlər müstəqillik, öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, peşə borclarını yerinə yetirərkən şəxsi toxunulmazlıq, şərəf və ləyaqətlərini müdafiə etmək hüquqlarına malikdirlər.

6.2. Jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir.

6.3. Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş məlumatların toplanması, hazırlanması, redaktə və istehsalı, ötürülməsi, habelə həmin məlumatlara dair fikir bildirilməsi (şərh verilməsi) ilə bağlı jurnalistlərin təqib edilməsi və onlara təzyiq göstərilməsi yolverilməzdir.

Jurnalistin dövlət orqanlarından informasiya əldə etmək hüququ heç bir halda məhdudlaşdırılmır. Əksinə, daha tez cavab verilməsi tələb olunur.

17.3. İnformasiya əldə edilməsi barədə yazılı sorğuya "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Həmin Qanunda göstərilən müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 (iyirmi dörd) saatdan gec olmayaraq cavab verilməlidir.

## Media subyekti üçün icazə tələb olunurmu?

Bir neçə şəxs tərəfindən Qanunun qəsdən səhv yozulması bəzi insanlarda çaşqınlıq yaratsa da, buna heç bir əsas yoxdur. Deyildiyinin əksinə olaraq, çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Bu da media azadlığının ən bariz nümunəsidir.

Çap mediası subyektlərinin fəaliyyətə başlamazdan əvvəl bu barədə məlumat verməsi isə, yeni bir prosedur deyil və bu qayda bütün dövrlərdə olub və bütün ölkələrdə də var. Aşkar görünür ki, dəyişiklik sadəcə adla bağlıdır. Mövcud və yeni məlumatların sistemləşdirilməsi və məlumatlar bazasının Media Reyestri adlandırılması nəzərdə tutulur.

Hazırda ölkədə 5 mindən artıq media vasitəsi aktiv fəaliyyət göstərir. Bu sahədə elə bir sistemsizlik, qarışıqlıq yaranıb ki, jurnalistlər özləri elə bəzi hallarda ayırd edə bilmirlər ki, hansı media orqanı hansıdır. Reyestr sadəcə məlumat toplama xarakterlidir və onların heç birindən müvafiq dövlət orqanında qeydiyyat tələb etmir.

Son vaxtlar geniş yayılmış və sayı sürətlə artan internet televiziyaların da lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır. Lisenziya almayan internet televiziyalar öz fəaliyyətlərini maneəsiz davam etdirə biləcəklər.

Göründüyü kimi, media azadlığına zidd olan bircə məqam da yoxdur. Amma media azadlığını dövlət təminatı altına alan xeyli müddəa var.

## Plagiatlığa son və ya müəllif hüququ necə tənzimlənəcək?

Yenin qanunla media subyektlərinin istehsal etdikləri məhsullar üzərindəki müəlliflik hüquqlarının qorunması təmin ediləcək, media subyektlərinin bir-birlərindən material "oğurlamaq" vərdişləri aradan qalxacaq, informasiya uğrunda mübarizə və məqalə yaratmaq bacarıqlarının inkişafı sürətlənəcək.

Bununla bağlı Qanunla çox maraqlı və faydalı bənd var. 13-ci maddəyə görə, bir media orqanı başqasının hazırladığı materialı bütövlükdə götürüb yaya və ondan bəhrələnə bilməz. Yalnız üçdə bir hissəsini verə bilər, o da istinad etməklə. Başqasının materialını tam yayımlamaq və dərc etmək yalnız abunəlik və müqavilə əsasında mümkündür.

**Maddə 13. İnformasiyadan istifadə edilməsi**

13.1. Media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə bilər.

13.2. Abunəlik və ya müqavilə olmadıqda media subyekti digər media subyektinin hər bir informasiyasının yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər.

Göründüyü kimi, qanunun əsas prinsiplərindən biri də informasiya istehsalçısı və yayımçılarının müəlliflik hüquqlarının qorunması ilə bağlıdır. Qanun layihəsində mediada dərc olunan, yayımlanan informasiya və ya hər hansı material ilə bağlı konkret və dəqiq tələblərin müəyyən edilməsi jurnalist peşəkarlığının, sosial məsuliyyətinin artmasında mühüm əhəmiyyət kəsb edəcək. Bu, xüsusilə də onlayn media vasitələrinin "copy-paste" prinsipi əsasında çalışmasının qarşısını alacaq və jurnalistlərin məsuliyyətini artıracaq.

Hər hansı bir araşdırma, müsahibə, reportajı əziyyət, vaxt, enerji, vəsait xərcləyib hazırlayan media vasitəsindən hazır materialı götürüb yayıb müəllifdən daha çox bəhrələnmək ədalətli deyil. Qanun bu məsələdə konkret olaraq ədaləti bərqərar edir.

Ümumiyyətlə, bu layihə media fəaliyyətinin yeni trendlərə adekvat şəkildə müasirləşdirilməsi, əqli mülkiyyət və müəllif hüquqlarının qorunması, media və jurnalist adından sui-istifadə hallarının aradan qaldırılması baxımından yeni imkanlar açır.

Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ təsəvvürlərin aradan qaldırılmasına şərait yaradacaq, ictimaiyyət və media arasında qarşılıqlı etimadın güclənməsini təmin edəcəkdir.

Göründüyü kimi, bəzi dairələrin ətrafında süni hay-küy qopardığı Media qanununun heç bir mənfi tərəfi yoxdur. Tam əksinə, qanun bu sahədə qayda-qanun yaratmaq, mövcud xaosun və anaxiyanın qarşısını almaq, informasiya məkanının təmizliyinin və jurnalistikanın inkişafının təmin edilməsini şərtləndirəcək.

## Jurnalistlərin sosial müdafiəsində nələr dəyişəcək?

Media sahəsindəki problemlərdən biri də jurnalistlərin bir çoxunun əmək və sosial hüquqlarının pozulmasıdır. Belə ki, bir çox jurnalistlər əmək müqaviləsi olmadan işləyir ki, nəticədə onun pensiya kapitalı toplanmır, işçi kimi hüquqlarından istifadə edə bilmir. Qanun bu sahədə vəziyyəti kökündən dəyişəcək.

Media orqanları əməkdaşlarını rəsmi müqavilə əsasında işə götürməli olacaqlar və onlara ölkə üzrə müəyyənləşdirilmiş minimum aylıq əməkhaqqından aşağı məbləğdə maaş verə bilməyəcəklər. Hətta Medianın İnkişafı Agentliyindən qrant və yardım almış media orqanlarına agentlik tövsiyə, daha doğrusu tələb edir ki, əməkdaşlara orta aylıq əməkhaqqı məbləğində maaş verilməlidir.

Bundan başqa MEDİA-nın mütamadi olaraq təşkil etdiyi yazı müsabiqələrində əsil peşəkar jurnalistlər yaxşı pul mükafatı qazanırlar ki, bu da onların sosial vəziyyətinin yaxşılaşmasına töhfə verir.

Qanuna görə, jurnalistlər müxtəlif sosial güzəştlərdən, mükafatlardan, imtiyazlardan da istifadə edə biləcək ki, bu da onların daha rahat işləməsi üçün zəmin yaradacaq. Qanunun müvafiq bəndlərinə təkrar baxaq:

76.1.4. maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;

76.1.5. sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.

Göründüyü kimi, Media haqqında Qanun təkcə bu sahədə texniki tənzimləmələri nəzərə almır, həm də insan faktorundan çıxış edir, bu sahədə işləyənlərin sosial müdafiəsinin, sosial hüquqlarının təmin edilməsinə çağırır.

## Sözardı

Son dövrlərdə mediadan şəxsi məqsədlər üçün istifadə, şərəf və ləyaqətin ləkələnməsi, insan hüquqlarının pozulması, şəxsi və işgüzar həyata müdaxilə, milli və dini zəmində qarşıdurma yaratmağa cəhdlər, antidövlət təbliğatı aparma hallarının sayı xeyli artıb.

Bu faktlar media qanunvericiliyi və ictimai qınaq kontekstindən nəzərdən keçirildikdə anarxiyaya və özbaşınalığa, insan hüquqlarının və qanunların pozulmasına, milli və dövlət maraqlarının zərbə altına qoyulmasına gətirib çıxardığı aydın görünür.

Faktiki olaraq, bir çox media vasitələrində, xüsusən də onlayn media məkanında tərəfsizlik, peşəkarlıq, obyektivlik kimi prinsiplərin arxa plana keçirildiyi müşahidə edilir. Əvəzində sifarişli, qərəzli, reklam xarakterli və cəmiyyətin tələbatını ödəməyən materiallar çoxluq təşkil edir.

Bunları nəzərə aldıqda, qətiyyətlə demək mümkündür ki, dövlətin bu sahədə vətəndaşların hüququnu təmin etmək, ədaləti bərqərar etmək, həmçinin dünya standartlarında fəaliyyət göstərəcək peşəkar media orqanlarının formalaşması üçün optimal tənzimlənmə mexanizmi yaratma cəhdi təqdirəlayiqdir.

Konkret olaraq, ölkəmizdə söz və mətbuat azadlığı üçün bütün imkanlar var. Kim istəsə icazəsiz qəzet, jurnal, agentlik, internet saytı, hətta televiziyası açа bilir. İstənilən şəxsin hansısa yayım orqanında və ya sosial şəbəkələrdə fikrini ictimailəşdirmək imkanları var.

Dəyişən dünyada yeni trendlərin, yeni çağırışların yaranması ölkəmizdə də media, jurnalistika ilə bağlı sağlam mühit, rəqabətli şərait, inkişafa təkan verilməsini tələb edir. Parlamentdə qəbul olunacağı gözlənilən yeni media qanununun bu sahədə vəziyyəti fundamental olaraq dəyişəcəyinə ümid etmək olar.

# "Media haqqında" qanun nələri dəyişəcək ?

""Media haqqında" qanun zənnimcə, zamanında qəbul edilmiş sənəddir. Bizim hal-hazırda isdifadə etdiyimiz qanun 1995-ci ildə qəbul olunmuş "Kütləvi informasiya vasitələri haqqında" qanundu". Bu sözləri SİA-ya açıqlamasında Jurnalistika fakültəsinin "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" kafedrasının müdiri Cahangir Məmmədli bildirib. Onun sözlərinə görə, müasir dövrdə informasiya texnologiyalarının inkişafı nəticəsində yeni media anlayışı meydana gəlmişdir: ""Media haqqında" qanunda yeni mediann bütün sahələrini əhatə edən hüquqi normalar birləşmişdir. Bu qanunda bir sıra məqamlar var ki, mən onları çox müsbət bir şəkildə qarşılayıram. Bunlardan biri internet resuslarında fəaliyyət göstərən kanallara lisenziya hüququnun verilməsi ilə bağlıdır. Bu maddə müzakirələrə səbəb olsa da, mən çox dəstəkləyirəm, çünki bir sıra internet kanalları dövlət əleyhinə çıxışlar edirlər və bu kimi kanalların qarşısını almaq üçün onlar müəyyən qanun altında fəaliyyət göstərməlidirlər. Digəri isə dövlət qurumlarının mətbu orqan aça bilməməsi ilə bağlıdır. Düşünürəm ki, doğru bir yanaşmadır. Ona görə ki, bir sıra dövlət müəssələri mətbuat orqanı açsalar da sonradan həmin müəssələr ilə maraqlanmırlar və nəticədə onların fəaliyyəti yarımçıq qalır. Belə halların baş verməməsi üçün yeni qanuna əsasən dövlət qurumları mövcud qəzetlərə abunə olsalar, bu addım həmin qəzetə həm maddi, həm də reklam məsələsinə çox müsbət bir şəkildə təsir göstərər.

Onu da demək istəyirəm ki, "Media haqqında" qanun həm hərtərəfli, həm də, zamanın tələblərinə uyğun olaraq hazırlanmışdır".

***Banuçiçək Hüseynli***



# Belarus XİN Azərbaycana təşəkkür edib

Belarusun Xarici İşlər Nazirliyi (XİN) Azərbaycana Avropa İttifaqının Şərq Tərəfdaşlığı sammitində dəstəyinə görə təşəkkürünü ifadə edib. Belarus XİN-dən bildirilib ki, suverenlik və müstəqillik anlayışlarının dəyərini gözəl başa düşən qardaş Azərbaycana ölkəmizi beynəlxalq arenada ardıcılı və kompromissiz şəkildə dəstəklədiyinə görə təşəkkürümüzü bildiririk. Bakı növbəti dəfə özünü beynəlxalq hüquq normalarına uyğun olaraq öz xarici siyasi prinsiplərinə sadiq qalan məsul və müstəqil iştirakçı kimi nümayiş etdirdi.

Qurumdan qeyd ediblər ki, Belarusu "Şərq tərəfaşlığı" üzv ölkələrilə Aİ-nin siyasiləşmiş təşəbbüsü deyil, ilk növbədə, ümumi tarix, xalqların yaxın dostluğu, qarşılıqlı səmərəli ticari-iqtisadi əməkdaşlıq, MDB məkanında konstruktiv əməkdaşlıq bağlayır. "Əlbəttə, biz Şərq Tərəfdaşlığı sammitində dost dövlətlərdən anti-Belarus açıqlamaları və addımları birmənalı şəkildə pisləmənisi gözləyirdik. Gənc post-sovet ölkələrinin tarixi dəfələlə göstərib ki, geosiyasi vəziyyətdən və Avropa bürokratiyasının əhvalından asılı olaraq istənilən bayraq altındakı yer boş qala bilər", - nazirlikdən deyiblər.

Qeyd edək ki, Azərbaycan Şərq Tərəfdaşlığının (ŞT) 6-cı Zirvə Görüşündə qəbul edilən bəyannamənin Belarusun daxili işlərinə aid olan bəndinə qoşulmayıb.

# 130 milyon manatdan çox aliment tələbkarlara ödənilib

"İcra xidmətinin icraatında 700 mindən çox icra sənədləri varsa, onlardan 100 mindən çoxu aliment tələbi ilə bağlıdır". SİA xəbər verir ki, bunu Ədliyyə Nazirliyinin İcra Baş idarəsinin analitik-nəzarət şöbəsinin aparıcı məsləhətçisi Kəmalə Əhmədova "Aliment və digər borc tələblərinə dair qərarların icrası" mövzusunda keçirilən canlı yayımda deyib.

O bildirib ki, bunların sayı ilbəil artmaqdadır: "Aliment işlərində uşaqların sayı 160 mindən çoxdur. 2009-cu ildə alimentlə bağlı icra sənədlərinin sayı 25 mindən çox idisə, son iki ildə 4 dəfəyə qədər artım olub. Bununla da 99 mindən çox icraatda icra tələbi olub. Son il yarım ərizində 130 milyon manatdan çox aliment tələbkarlara ödənilib".



ŞƏRH+AKTUAL

# Ermənistan-Türkiyə
## münasibətlərinin normallaşdırılması prosesi

**Türkiyənin Habertürk nəşri Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesi ilə bağlı maraqlı detalları şərh edib. SİA xəbər verir ki, türk nəşrinin bildirdiyinə görə, artıq Ankara sözügedən məsələ ilə bağlı işçi qrupunun formalaşdırılması tarixini də müəyyən edib - 20 yanvar 2022-ci ildə. Belə ki, hər iki tərəfdən xüsusi nümayəndələr təyin ediləcək. Onu da qeyd edək ki, xüsusi nümayəndənin təyin olunması üçün Ankaranın yeddi namizədi var idi. Ötən gün isə bəlli olub ki, Türkiyənin ABŞ-dakı keçmiş səfiri Serdar Kılıç ölkənin Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin edilib.**



Tərəflər hansı çərçivədə addımlar atmağı planlaşdırırlar?

### İlk olaraq İrəvana çarter reyslər açılacaq

Bu barədə isə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) səfəri zamanı bildirib.

Bu xüsusda daha bir məqamı da xatırlada bilərik ki, hələ dekabrın 13-də Türkiyə Böyük Millət Məclisində (TBMM) büdcə müzakirələrində çıxış edən Mövlud Çavuşoğlu Ermənistanla münasibətlərin normallaşması çərçivəsində bir sıra addımların atılacağı anonsunu vermişdi. Məhz həmin vaxt vurğulanmışdı ki, Ermənistanla münasibətlərin normallaşdırılması addımları çərçivəsində xüsusi nümayəndələr təyin ediləcək. Onların vəzifələri iki ölkə arasında birbaşa dialoqu təşkil etməkdən ibarət olacaq.

### Türkiyənin bütün addımları Azərbaycanla birgə qəbul ediləcək

Habelə, Türkiyənin XİN rəhbəri ölkəsindən İrəvana çarter reyslərinə başlanılacağını da deyib və qardaş ölkənin baş diplomatının sözlərinə görə, bütün addımlar Azərbaycanla birgə qəbul ediləcək.

Məhz bu çərçivədə də aydın görünür ki, Ermənistanla münasibətlərin normallaşdırılması prosesi ilk növbədə Türkiyənin də maraqlarındadır və Ermənistanın da bu çağırışlara qarşılıq veriləcəyi halda regionda bir sıra müsbət dəyişikliklərin baş verəcəyini ehtimal etmək olar.

### Proseslər üç mərhələdə həyata keçiriləcək

Habertürk bu kontekstdən çıxış edərək yazır ki, 2022-ci ilin mayına qədər üç mərhələli yol xəritəsi hazırlanacaq. İlk mərhələ 2022-ci lin mart ayıdır ki, həmin vaxt ölkələr arasında çarter reysləri açılacaq. May-iyun aylarında Ankarada Azərbaycan-Naxçıvan-Türkiyə üzərindən kommunikasiyaların açılması, həmin ilin iyulunda isə iqtisadi münasibətlərin başlanması nəzərdə tutulur.

Ermənistanda da prosesin start götürdüyü bildirilir. Məlum olub ki, 2022-ci ilin 15 yanvar tarixindən başlayaraq işçi qrup və katiblik formalaşdırılacaq ki, həmin qrup birbaşa baş nazir Nikol Paşinyanla işləyəcək. Həmçinin, bildirilir ki, İrəvan yaradılacaq işçi qrupuna Türkiyə ilə əlaqələri olan şəxsləri dəvət edəcək. Onlar tarixi ölçü çərçivəsindən kənar və qarşılıqlı maraqlar əsasında diplomatik münasibətləri quracaqlar.

*Rövşən RƏSULOV*

---

# Görən, Nikolun Araiklə görüşməkdə məqsədi nədir?

**...Deyirlər, ötən gün Brüsseldən İrəvana dönən baş nazir Nikol Paşinyan tələm-tələsik Araik Arutyunyanla görüşüb. İndi ermənilər baş sındırır,.. Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə** Ermənistan Baş naziri Nikol Paşinyan arasında keçirilən rəsmi görüş zamanı Qarabağ müzakirə olunmayıb axı.

Bundan əlavə, bu gün münaqişənin artıq keçmişdə qaldığını qəti şəkildə bəyan edən rəsmi Bakı Qarabağla bağlı heç bir müzakirə aparmadığı da kimə məlum olnmasa da, əksər ermənilərə məlumdur.

Bəs, belə olan halda, Nikolun Arutyunyanla görüşə "can atmasına" səbəb nədir? Maraqlıdır ki, bunlara diqqət çəkən bəzi erməni siyasiləri Nikolun keçirdiyi xüsusi görüşlərindən ehtiyatlı olmağa çağırırlar. Onlara görə, ötən gün Azərbaycan Prezidenti ilə təkbətək görüşən Paşinyanın qarşı tərəfə nə vəd etdiyi yəqin ki, aylar sonra "faş olacaq"...

O da maraqlıdır ki, Paşinyanın Brüsseldəki görüşlərinə diqqət çəkən bir çox ermənilər Nikolun artıq özündən bezən birinə bənzədirlər. Onların dediyinə inansaq, belə başa düşülür ki, guya Nikol artıq tükənib. Yəni belə rəsmi görüşlər üçün "yararsız" olan Nikolun gücü hələ ki, xalqa yalan vədlər verməyə çatır. Bundan əlavə, guya bu gün "rəhbərləri" ona daha bir məsuliyyətli vəzifə, bölgədə Türkiyə-Azərbaycan maraqlarını təbliğ etmək "həvalə ediblər".

Təbii ki, ermənilər bunu deyərkən ilk növbədə Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesini nəzərdə tuturlar. Bununla yanaşı, onlar iki ölkə arasında münasibətlərin "normallaşması" prosesinin sırf Ermənistanın maraqları hesabına baş verəcəyinə də "şübhə etmirlər". Onların fikrincə, guya bu normallaşma ancaq Ankaranın təklif edəcəyi şərtlərlə həyata keçiriləcək.

Deyim ki, ermənilər bunun üçün Türkiyənin artıq ilk addımını atdığını, yəni qonşu ölkənin ABŞ-dakı keçmiş səfir Serdar Kılıçın məhz bu məqsəd üçün təyin edildiyini də gizlətmirlər.

Maraqlıdır ki ermənilər dünənə qədər türk siyasətçi Serdar Kılıçla "cəngə girəcək" biri kimi, sabiq "ermənistanlı" Jirayr Liparityanı görürmüşlər ki, amma sən demə, o da "satqının biriymiş". Ona görə də, məcburiyyət qarşısında qalmalarına baxmayaraq, amma belə bir məsuliyyətli vəzifəni ona həvalə etmək doğru olmaz. Hələ bundan əlavə, ABŞ vətəndaşı olan Liparityan, əgər sabah işinin öhdəsindən gəlməsə, onun aradan çıxıb yenidən ölkəsinə, yəni ABŞ-a qaçması üçün elə də bir çətinlik də yaratmaz.



Məhz elə buna görə də indi ermənilər yenidən, amma bu dəfə daha çox qorxmağa başlayıblar. Onlar indi Nikolun bundan sonrakı təyinatlarla bağlı verəcəyi qərarların sonrakı nəticələrindən qorxurlar.

...Amma deyim ki, Avropadan dönən Nikolun tələm-tələsik Araik görüşmək istəyi hələ də ermənilər üçün sirr olaraq qalmaqdadır.

*Ağasəf Babayev*

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Dəmir yumruqdan dəmir yoluna

**Ölkə başçımızın Brüssel səfəri və səfəri çərçivəsində Azərbaycana göstərilən xüsusi diqqət nəzərlərdən yayınmadı. İstər NATO-nun xüsusi toplantısında, istərsə də Aİ çərçivəsindəki görüşlər kontekstində İlham Əliyevin ali liderlik və ali diplomatiya məqamı qoca qitə tərəfindən rəsmi olaraq qəbul olundu, dəyərləndirildi. Əlbəttə ki, bütün bunların təməlində dayanan əsas və birinci amil 44 günlük Vətən müharibəsində qazanılan birmənalı Zəfər reallığı və onu təmin edən Dəmir yumruq faktorudur.**

Gəlin hadisələrə sadə və anlaşılan gerçəklik prizmasından yanaşaq. Müharibə bitər-bitməz ağır məğlubiyyəti ilə barışa bilməyən, zaman-zaman revanşçılıq hisslərini nümayiş etdirən Ermənistanın hərbi-siyasi və ictimai dairələri bununla heç nəyə nail olmayacaqlarını anlamağa başladılar. Düzdür, bu gün erməni cəmiyyəti arasında hələ də qan tökmək, düşmənçiliyi davam etdirmək üçün bir sıra qruplar fəaliyyət göstərirlər və onların da məhz Avropanın, Qərbin müəyyən bəlli dairələri tərəfindən idarə edildikləri sirr deyil.

Yəni bu gün Avropada da iki qütb mövcuddur - bir qütb Cənubi Qafqazda normallaşma prosesini dayandırmaq üçün bütün kirli siyasi ambisiyalarını işə salır, bu çərçivədə Ermənistandakı revanşçı qrupları müxtəlif vasitələrlə idarə edir, digər qütb isə inkişaf və tərəfdaşlıq maraqlarını təmin etmək üçün sıx əməkdaşlıq vasitələrini işə salmaqla və güclü olanlarla hesablaşmaqla Avropa məkanına yeni ab-hava gətirmək istəyir. Belə olan halda Azərbaycanın dövlət başçısının diplomatiya və güc prinsipləri ələlxüsus nəzərə alınır və biz həmin faktı Brüsseldə müşahidə etdik, əsasən də Ermənistanın baş naziri Nikol Paşinyana olan münasibət fərqində, yaxud müqayisəsində.

Artıq Zəngəzur məsələsində ilkin irəliləyişlərin əldə olunduğunu müşahidə etməkdəyik. Dəmir yumruğun gücü sayəsində çox yaxın vaxtlarda Zəngəzur dəhlizindən dəmir yolu xətti işə salınacaq və bu yolun açılması növbəti planların icrasına zəmin yaradır - avtomobil yolunun və buna da şübhə yoxdur. Çünki proseslər bir-birini əvəzlədikcə qarşıya yeni tələblər çıxır, Brüsseldə isə həmin tələblər də səsləndirildi və səsləndirildisə demək ki, icra olunacaq!

Daha bir əhəmiyyətli məqam - sərhədlərin delimitasiyası və demarkasiyası. Məlumdir ki, Paşinyan bu məsələdə də inadkarlığını nümayiş etdirirdi, amma onun bu inadkarlığı ötən ay sərhəddə necə deyərlər yaxşıca cəzalandırıldı. Bu gün Azərbaycan əsgəri Zəngəzurun bütün yüksək nöqtələrində dayanıb. İndi qalır sərhədlərin müəyyənləşdirilməsinə ki, məhz dəhlizlərin, yaxud kommunikasiyaların işə salınması prosesə öz təkanını verəcək.

Bu gün Laçın dəhlizi ilə bağlı da bir sıra söz-söhbətlər gedir, mülahizələr irəli sürülür. Lakin unutmaq lazım deyil ki, dövlət başçımız artıq Brüssel səfəri çərçivəsində öz mühüm bəyanatını səsləndirdi - əgər Ermənistan Zəngəzur dəhlizində gömrük məntəqəsini qurmağı nəzərdə tutubsa, bu zaman Azərbaycanın da Laçın dəhlizində öz gömrük məntəqəsi qurulacaq və məlum erməni dairələri bundan haqq elədikləri nəsiblərini alacaqlar - yəni Qarabağda, Xankəndidə separatçı tör-töküntüləri bütün hallarda qalmayacaq, onlar ərazilərimizdən rədd olub-gedəcəklər. Amma hər şeyə rəğmən, hətta gömrük məntəqləri qurulmazsa belə, sərhədlərin delimitasiyası və demarkasiyası həyata keçiriləcək və Xankəndimiz çox yaxında Azərbaycanın suveren ərazisi olaraq de-fakto Bakının yuridiksiyası altına keçəcək. Buna da əsla və əsla şübhə yoxdur. Beləliklə, Dəmir yumruqdan dəmir yoluna aparan yol davam edir və bu yol bütövlükdə inkişafa, tərəqqiyə, sülhə, əmin-amanlığa doğru gedir. Xalqlara sülh və tərəqqi lazımdır, bu? sülhü də təmin edən məhz Dəmir yumruqdur!

ARAŞDIRMA



# Turistlər Azərbaycanda və dünyada haraları görməlidir?

Biz, böyük və ecazkar bir dünyada yaşayırıq. Əslində, dünyanın ən gözəl yerlərini seyr edərkən növbəti dəfə hara gedəcəyinizə qərar vermək qeyri-mümkün görünə bilər. Dünyaca məşhur səyahət jurnalı Conde Nast Traveler Antarktidadan Arktika buzlaqlarına, şərqdən qərbə qədər görməli olduğunuz dünyanın 51 ən gözəl yerini sıralayıb. Siyahıda Türkiyədən də görülməli olan iki təbiət möcüzəsi var. Dünya möhtəşəm gözəlliklərlə doludur. Bir müddətdir pandemiya prosesinə görə bu gözəlliklərdən məhrum olsaq da, insanlar gələcəkdə bu yerləri yenidən kəşf etməyi gözləyirlər. Budur, Okeaniyadan Afrikaya, Amerikadan Avropaya qədər gələcəkdə görməli olduğunuz dünyanın ən gözəl 51 yeri.

### Angel şəlalələri, Venesuela

Venesuelada dünyanın ən hündür şəlaləsi olan Angel şəlalələri yerləşir. YUNESKO tərəfindən qorunan Canaima Milli Parkında yerləşən 3212 metrlik Angel şəlaləsi



çox gözəldir. Bu, ölkənin ən cazibədar yeridir. Niaqara şəlaləsindən 19 dəfə yüksəkdən axan bu nəhəng təbiət möcüzəsi mütləq görülməli yerlərdən biridir.

### Antarktida

Antarktidanın 99 faizi buzla örtülsə də, mənzərə hələ də təəccüblü dərəcədə fərqli olmağı bacarır.

### Arasiyama bambuk bağı, Yaponiya

Hər bir səyahətçi Yaponiyanın tarixi paytaxtı Kyotonun kənarındakı bu bambuk bağının sonsuz yüksəkliklərinin verdiyi hissi yaşamalıdır. Təcrübə əslində vizual dünyadan kənara çıxır. Burada gəzinti zamanı eşidiləcək səslər qeyri-adi gözəlliyə malikdir.



Ancaq bu səslərin bəzi insanlarda fərqli reaksiyalara səbəb olduğu müşahidə edilib. İş o yerə çatıb ki, hətta meşədəki səslərə görə psixi sağlamlığı pozulanların da varlığı qeydə alınıb.

### Antilop Kanyonu, ABŞ

Antilop Kanyonu ABŞ-ın cənub-qərbindəki təbii möcüzə kanyondur. Navajo "suyun qayaların arasından axdığı yer" mənası-



nı verir və kanyonun eroziya nəticəsində əmələ gəlməsinə işarədir. Qaya birləşmələri arasındakı dar, dalğalı boşluqlar günəş işığı zolaqlı daşdan süzüldükdə canlı naxışlar yaradır. Bu cəhəti Antilop Kanyonunu dünyanın 51 ən gözəl yerindən birinə çevirir.

### Atakama səhrası, Çili

Atakama səhrası qərbində Sakit Okeanı olan Çilinin dünyaca məşhur səhrasıdır. Demək olar ki, yağışın yağmadığı bu səhra NA-



SA tərəfindən kosmik gəmilərin sınaqdan keçirildiyi yer kimi də tanınır. 1971-ci ildə yağan yağışa qədər bölgədə 400 il ərzində yağıntı qeydə alınmayıb. Bu gün Atakama dünyanın ən quraq yeri olaraq qalır.

### Baobablar, Madaqaskar

Afrikanın və dünyanın ən böyük adalarından biri olan Madaqaskar, təbii həyatı ilə yanaşı, böyük təbiət sərvətinə ev sahibliyi edir. Adanın gözəllikləri arasında nəhəng kəpənəklər, böcək gözlü lemurlar və əsrlik ağacların hündürlüyü təxminən 75 metrə çatan sürreal Baobab kimi yerlər var.

### Azor adaları, Portuqaliya

Atlantik okeanında yerləşən Azor adaları Amerika kəşf edilənə qədər uzun müddət Qərbdə avropalıların çatdığı ən ekstremal



nöqtə olaraq qaldı. Əsl təbiət möcüzəsi olan Azor adaları bu gün turizm baxımından da kifayət qədər inkişaf etmişdir. Atlantik okeanındakı Portuqaliya adaları qrupu olan Azor adaları həm də Avropada günəşin son batdığı yerdir.

### Banff Milli Parkı, Kanada

Dünyanın ən böyük səth sahəsinə malik ikinci ölkəsi



olan Kanada da bir çox təbii gözəlliklərə ev sahibliyi edir. Geniş meşələri, dağları və buzlaqları ilə təbiətsevərlərin ən sevimli marşrutlarından biri olan Kanadanın qərb hissəsindəki Alberta əyalətində yerləşən Banff Milli Parkı ölkənin ən mühüm təbii sərvətlərindən biridir.

### Boracay, Filippin

Çəkici sahil xətləri və romantik gün batımları ilə Boracayı niyə insanlar tərəfindən dünyanın ən yaxşı adalarından biri kimi seçdiyini başa düşmək asandır. Mənfiliyi aradan qaldırmaq üçün Boracay bir neçə il əvvəl "reabilitasiya" üçün bağlanmışdı. İndi yalnız məhdud sayda ziyarətçi üçün açıqdır.

### Kabo San Lukas, Meksika

67 milli parka, 6000 kilometrdən çox sahil xəttinə və səhralardan qarla örtülmüş vulkanlara qədər landşaftlara ev sahibliyi edən Meksika yaz tətili çox gözəldir. Kabo San



Lukas Kaliforniya körfəzinin Sakit Okeanla qovuşduğu yerdə, bölgənin firuzəyi suları, dəniz həyatı və simvolik Cabo San Lucas Arch unudulmaz bir xatirə olacaq.

### Moher İrlandiya qayaları

700 metr yüksəklikdə bu təbiət möcüzəsi kimi gözəlliyə az yerlər nail ola bilər. Dəlilik qayaları kimi tanınan Moher qayaları nəfəs kəsən qayaları ilə İrlandiyanın Galvay bölgəsindəki ada dövlətinin bir az cənubunda yerləşir. Tez-tez kino səhnələrinə ev sahibliyi edən bölgə həm də İrlandiyaya gələn turistlərin ziyarət etdiyi məkandır.

### Denali Milli Parkı, ABŞ

ABŞ-ın ən böyük ştatlarından biri olan Alyaskada yerləşən Denali Milli Parkı təbii quruluşu ilə diqqət çəkir.

*Ardı Səh. 12*

# Turistlər Azərbaycanda və dünyada haraları görməlidir?



**Əvvəli Səh. 11**

Denalinin gözəlliyi həddindən artıq aşağı temperaturlara dözməyə dəyər.

## Qalapaqos adaları, Ekvador

Çox az adamın olduğu, təbiət və vəhşi həyatla başa-başa qala biləcəyiniz bu yer sizə həm romantik, həm də yüksək adrenalinli bir tətil vəd edir. Çarlz Darvinin uzun bir səfərdə olduğu və Təkamül Nəzəriyyəsinin əsasını təşkil edəcək canlılarla qarşılaşdığı bu coğrafiya, çatmaq çətin olsa da, görülməyə dəyər.

## Böyük Kanyon, ABŞ

Tez-tez Dünyanın Yeddi Təbiət Möcüzəsindən biri kimi



xatırlanan Grand Canyon Milli Parkı bir səbəbə görə əksər səyahətçilərin siyahısındadır. Böyük bir coğrafiyaya yayılan Böyük Kanyon da Hollivud filmlərinin tez-tez çəkildiyi yerlər arasındadır. Bu, xüsusilə macəraçı səyahətçilərin xəyallarını bəzəyən təbiət möcüzəsidir.

## Farer adaları

Farer adaları dünyanın şimal ucunda, Şimali Atlantikanın ortasında yerləşən adalar toplusudur. Soyuq və dumanlı havası ilə tanınan Farer adaları xüsusilə fotoqrafların sevimli yerləri sırasındadır. Danimarkanın bir hissəsi olan bu adalarda çox az adam yaşayır. Qoyunları ilə məşhur olan Farer adaları haqqında bilməli olduğunuz şey budur.

## Böyük Baryer rifləri, Avstraliya

Yer kürəsinin ən böyük canlı məxluqu



olan Böyük Bariyer rifi kosmosdan görünsə də, ən yaxşı baxış nöqtəsi hər il ziyarət edən şnorkelçilər və dalğıclara aiddir.

## Qrenlandiya, Danimarka

Qrenlandiya indi Danimarkanın bir hissəsidir. Dünyanın ən böyük adası olan Qrenlandiya "yaşıl torpaq" mənasını versə də, bölgə demək olar ki, bütün ilin qar və buzla örtülü keçir. Şimal işıqlarının da müşahidə oluna biləcəyi Qrenlandiya macəraçıların kəşfiyyat marşrutundadır. 2.166.000 kvadrat kilometr sahəsi ilə dünyanın ən böyük adası olan Qrenlandiyanın ölçüsü ilə tərs mütənasib olaraq cəmi 58 min nəfər yaşayır.

## Halong Bay, Vyetnam

Vyetnamın şimal-şərqində yerləşən Ha-



long körfəzi mavi suları və tropik ağacların və canlı təbiətin əhatə etdiyi adaları ilə sevilir. Dumanla örtülmüş zümrüd hövzəsinin gözəlliyini və bu barədə mifləri və hekayələri özünüz yaşamaq üçün qayıq turu ideal seçimdir.

## Skye adası, Şotlandiya

Sonsuz dalğalı zirvələri ilə sehrli Skye adası xəyalların qurulduğu yerdir. Buradakı təbiət zamansız olsa da, adada hərtərəfli müasir yemək səhnəsi var. Bura həm də məşhur Outlander serialının çəkilişlərinə ev sahibliyi edən yer kimi tanınır.

## Baykal gölü, Rusiya

Baykal gölü Rusiyanın uzaq küncündə, Sibirdə yerləşən təbiət möcüzəsidir. Dünyanın ən qədim və ən dərin gölü olan Baykal qış aylarında tamamilə donur. Türklərin tarix səhnəsinə ilk çıxdığı yerlərdən biri olan Baykal gölünün belə bir cəhəti var. Baykal gölü



Sibirin seyrək məskunlaşmış coğrafiyasında yerləşir. 30 milyon il əvvəl yaranan Baykal gölü bu mənada dünyanın ən qədim gölüdür.

## Tekapo gölü, Yeni Zelandiya

Bənövşəyi, çəhrayı və mavi lupin çiçəklərinin vətəni Yeni Zelandiya olmasa da, həqiqətən də Okeaniyanın bu cənub ucunda ən parlaq şəkildə çiçək açır. Xüsusilə Tekapo gölündə çiçəklər ölkənin ən heyrətamiz mənzərələrindən birini yaratmaq üçün kristal təmiz su fonunda yan-yana qoyulur.

## Laguna Kolorada, Boliviya

Çilidəki San Pedro de Atakamadan şimala təxminən üç saatlıq yolda, And dağlarının kölgəsindəki bu duzlu göl, həddindən artıq istidə inkişaf edən yosunların nəticəsi olan qan-qırmızı suları ilə tanınır. Flamingolar dekabrdan aprel ayı-



na qədər ən yaxşı şəkildə görünür. Gün batımında, ən qırmızıya çevrildiyi zaman gölü tutmağa çalışın.

## Lençois Maranhenses Milli Parkı, Braziliya

Braziliyanın Lençois Maranhenses Milli Parkının coğrafiyası yer üzündə heç nəyə bənzəmir. İyunun əvvəlindəki yağışlı mövsüm zehnin onu necə qəbul etdiyi ilə düz mütənasib olaraq ya boğulmuş səhra, ya da qumlu göl kimi görünür. Milli Parkı xüsusi edən də məhz bu cəhətdir.



## Machu Picchu, Peru

Maçu Pikçu hələ də açılmamış sirləri ilə insanları valeh edir. Peruda And dağlarının hündürlüyündə yerləşən bu tarixi şəhər yüz il əvvəl dünyanın qalan hissəsinə məlum deyildi. Təsadüfən kəşf edilən bu tarixi şəhər 2430 metr yüksəklikdə salınıb.

## Milford Sound, Yeni Zelandiya

Yeni Zelandiya, xüsusilə Cənubi Adanın qərb sahilində nəfəs kəsən mənzərələrə yad deyil. Bütün zamanların ən çox baxılan filmlərindən biri olan bu epik serialın çəkildiyi məkan Milford Sound, Üzüklərin Efendisi pərəstişkarlarının tez-tez getdiyi yerdir.

## Fuji dağı, Yaponiya



Yaponiyanın ən gözəl yerini seçmək çətindir, lakin 3777 metr hündürlükdə olan Fuji dağı bu mükafata layiq görülə bilər. Dağ və albalı çiçəyi ağaclarının ən yaxşı mənzərəsi üçün yazda Kavaguchiko gölünü ziyarət edə bilərsiniz və ya həvəsli bir səyahətçisinizsə, iyulun ortalarından avqustun sonuna qədər, qarın Fuji zirvəsinə çıxmaq üçün kifayət qədər əridiyi zaman səyahət planlaşdıra bilərsiniz.

## Kilimancaro dağı, Tanzaniya

Afrikanın ən yüksək zirvəsi bir çox digər məşhur dağlardan daha heyrətamiz görünür, çünki o, heç bir dağ silsiləsi olmayan qədim stratovulkandır. Bu o deməkdir ki, 5800 metrlik zirvə bütün istiqamətlərdə geniş, düz düzənliklərə enir və bu, Tanzaniyanın geniş yayılmış topoqrafiyasına ilğım kimi zərbədir. Əlavə məlumat: Dağın zirvəsinə çıxmaq üçün heç bir texniki alpinizm bacarığı tələb olunmur. Ona görə də bu yer həvəskarların da maraq göstərdiyi yerdir.

## Namib səhrası, Namibiya

Namib səhrası Cənubi Afrika ölkəsi Namibiyaya adını verən təbii formasiyadır.



Kərgədan, zürafə və fil populyasiyaları, eləcə də yerdənkənar mənzərələr və təcrid olunmuş lüks lojaları ilə Namibiya Yer kürəsinin heç bir yerindən fərqlidir.

## Na Pali Sahili, Havay

Kauai, uca şəlalələri və təcrid olunmuş aypara çimərlikləri ilə dünyanın ən möhtəşəm sahillərindən birinə malikdir.

*Ardı Səh. 13*

Əvvəli Səh. 12

Sadəcə onun möcüzələrini yaşamaq üçün bir az səy göstərməyə hazır olun. Na Pali yalnız vertolyot, katamaran və ya olduqca yorucu bir gəzintidən görünə bilər. Ona görə də bu gözəlliyə şahid olmaq üçün bir az səy göstərmək lazımdır.

## Okavanqo Deltası, Botsvana

Botsvananın şimalındakı 49 milyon akr çay deltası olan yamyaşıl Okavanqo Deltası çitaların, zebraların, camışların və kərgədanların sərbəst gəzdiyi əsl cənnətdir. Savannanın otları azdır, su yollarında böyümə tonlarla canlı təbiəti cəlb edir.



## Pitonlar, Lucia

Müqəddəs Lusiyanın mənzərəsi ziyarətçiləri valeh edir. İki vulkanik zirvə - Gros Piton və Petit Piton - adanın ən simvolik yerləridir və ziyarətçilər buradan müxtəlif yollarla həzz ala bilərlər.

## Playa de Las Catedrales, İspaniya

Avropanın İber yarımadasındakı bir təyinat yeri, İspaniya ada cənnətləri və yarı uzaq qumlu çimərlikləri ilə tanınır.

## Plitvice Milli Parkı, Xorvatiya

Plitvice Gölləri Milli Parkı Xorvatiyanın paytaxtı Zaqrebin yaxınlığında yerləşən əsl təbiət möcüzəsidir. YUNESKO-nun Ümumdünya İrs Siyahısına da daxil olan Plitvice Təbiət Parkı xüsusi mühafizə altındadır. Xorvatiyaya, xüsusən də paytaxt Zaqrebə gələnlər bu məşhur marşrutu mütləq ziyarət edirlər.

## Provence, Fransa

Sonsuz görünən lavanda tarlaları Provansı Fransanın ən gözəl yerlərindən birinə çevirir. Çiçəklərdən əldə edilən efir yağlarının şüşələrə qoyularaq sabun, losyon və kremlər hazırlamaq üçün istifadə edildiyi fabriklər bu bölgəyə damğasını vurur. Bununla belə, möhtəşəm bənövşəyi mənzərələrin çoxsaylı sahələri də Fransa üçün qürur mənbəyidir.



## Reynisfjara, İslandiya

Əgər Yer peykimizdə ayın sahil xətti olsaydı, o, çox güman ki, Reynisfjara bənzəyirdi. Cənubi İslandiyanın Vik şəhərindən cəmi 20 dəqiqəlik məsafədədir. Qara qum və möhtəşəm formalı bazalt sütunları bu çimərliyi onsuz da təsirli olan İslandiyanın ən təsirli çimərliklərindən birinə çevirir.

## Kapadokya, Türkiyə

Türkiyənin bütün şəhərlərinin qayalara həkk olunduğu bir bölgə olan Kapadokya özlüyündə inanılmaz bir təbiət hadisəsidir. Amma nə vaxt isti hava şarları səmanı doldurursa, onların əksəriyyəti günəş çıxanda havaya qalxır, gözəllik səviyyəsi sözün əsl mənasında zirvəyə çatır. Gözəl atlar ölkəsi mənasını verən Kapadokya həm pəri bacaları, həm də yeraltı şəhərləri ilə heyranlıq doğurur və bununla da dünyanın 51 ən gözəl yerindən biri olmağı bacarır.

## Pamukkale, Türkiyə

Pamukkalenin 17 qatlı hovuzları isti bulaqlar qədər gözəldir. Əhəng daşı növü olan ağ travertin yığınları Dənizli şəhərinə baxır və onun 34 dərəcə suları mavi Ege səmasını mükəmməl əks etdirir. Bu həm də Laodikeia Qədim Şəhərinin düz yanında yerləşən təbii gözəllikdir. Rayondakı qədim hovuz turistlərin diqqət mərkəzinə çevrilməyi bacarıb.

## Svalbard, Norveç

Dünyanın ən şimal yaşayış məntəqəsi olan Svalbard qlobal istiləşmədən mənfi təsirlənir. Norveçin Svalbard arxipelaqının ən mühüm şəhəri və dünyanın ən şimal yaşayış məntəqəsi olan Longyearbyen iqlim dəyişikliyindən əziyyət çəkir. Bura həm də qütb ayının hücumuna məruz qalma ehtimalı olduğundan hamının küçələrdə silahla gəzməli olduğu yerdir. Torpaqları ilin çox hissəsini donduran Svalbardda ölülər yüzlərlə kilometr aralıda olan Norveçdə dəfn edilir.

## Serengeti Milli Parkı, Tanzaniya

Tanzaniyanın Serengeti bölməsi Afrika macərası üçün ideal marşrutdur. Ziyarətçilər yanvar-mart ayları arasında 1500 kilometrlik illik dövrədə 1,5 milyon vəhşi heyvanın Şərqi Afrikanı keçməsinin şahidi olmaq üçün bölgəyə axın edirlər. Böyük köç adlanan bu hadisə sənədli filmlərə də çəkilib.

## Sokotra adaları, Yəmən

Ərəbistan yarımadasının cənubunda Yəmənin arxipelaqı olan Sokotra Hind okeanı, Qırmızı dəniz və Fars körfəzinin kəsişdiyi strateji nöqtədə yerləşir. Yəmənə aid olsa da, BƏƏ kimi ölkələrin hərbi müdaxilə etdiyi Sokotra bitki örtüyü ilə özünəməxsus xüsusiyyətə malikdir. Ada yalnız Sokotrada yetişdirilən bitkilərlə diqqət çəkir.



## Torres del Paine Milli Parkı, Çili

Torres del Paine, qranit sütunları, mavi göllər və otlayan guanacos ilə görünən çöllləri ilə bütün Cənubi Yarımkürənin ən təsirli yerlərindən biridir. Ərazi həm də gəzintiçilər üçün çox populyar bir yerdir: veteran səyahətçilər cığırın bütün uzunluğunu doqquz günə gedə bilərlər.

## Vulingyuan, Çin

Çinin Hunan əyalətindəki bu attraksionda göydələnlərin təbiət versiyası olan minlərlə qumdaşı sütunu var. Bu mənzərəli göydələnlərdən bəziləri Empire State Building-in ortasından da hündürdür. Unikal quruluşu ilə diqqət çəkən Vulingyuan bölgəyə gələn turistlərin də diqqət mərkəzində olmağı bacarır.

## Trolltunga, Norveç

Trolltunga, bir çox təbiət möcüzələri ilə Norveçin ən məşhur turistik yerlərindən biridir. 1100 metr yüksəklikdə olan Trolltunqa dağının sıldırım yamacları və ətəkləri dünyanın ən çox fotoşəkil çəkilən yerləri sırasındadır. Bölgə son illərdə sosial media sayəsində böyük populyarlıq qazanıb.

## Ubud, İndoneziya

Bali adasındakı onlarla sakit kənddən və Ubudun dinc kənd mənzərələrindən bir neçə dəqiqəlik məsafədə. Otelinizdə bir motosiklet və ya velosiped icarəyə götürə və əvvəlki nəsillərin minlərlə ildir etdiyi kimi terraslara baxan fermerlər tərəfindən canlı saxlanılan kəndlərdə, naringi bağlarında və düyü tarlalarında itə bilərsiniz.

## Uluru, Avstraliya

700 milyon illik Uluru (yaxud Ayers Qayası) yuxarıdan isti hava şarı ilə və ya motosikletlə səhra boyunca necə seyr etməyi seçməyinizdən asılı olmayaraq, onun əzəmətinin şahidi olmaq hər bir səyahətçinin siyahısında olmalıdır. Bu möhtəşəm qaya Avstraliyanın aborigenləri tərəfindən də müqəddəs sayılır. Ulurunun ən maraqlı cəhətlərindən biri onun Avstraliyanın demək olar ki, ortasında yerləşməsidir.

## Viktoriya şəlaləsi, Zimbabve-Zambiya

Hər 60 saniyədə şəlalənin üzərinə tökülən 500 milyon litr suyun ən aydın görüntülərini görmək üçün fevral və may ayları arasında ərazini ziyarət edin. Əvvəlki yağış mövsümündə yağan güclü yağışlar buna imkan verməsə də, turistlər Zambiya ilə Zimbabveni ayıran bu təbiət möcüzəsini görmək üçün ilin qalan hissəsində bölgəyə axışır.

## Zakintos, Yunanıstan

Mikonos və Santorinidən daha az izdihamlı olan Zakintosda dünyanın ən gözəl çimərliklərindən biri olan Navagio çimərliyi var. Qayalarla qorunan Navagioya yalnız qayıqla daxil olmaq olar. Yunanıstanın qərbində, İtaliyaya baxan bir istiqamətdə yerləşən Zakintos xüsusilə bal ayı sevənlərin tez-tez getdiyi yerdir.

SİA məsələ ilə bağlı araşdıra apararaq deputat və iqtisadçıların fikirlərini öyrənib.

**İqtisadçı deputat Vüqar Bayramov:** "Pandemiyanın ən çox təsir etdiyi sektorlardan biri turizm sektorudur. Praktiki olaraq pandemiyadan əvvəlki ildə 2019-cu ildə Azərbaycana gələn turistlərin sayı 3,2 milyon nəfər idi. Bu rəqəm pandemiya səbəbindən 2021-ci ildə bir yandan az olacaq. Bu da təbii ki, pandemiyanın turizmə təsirlərini göstərən əsas faktorlardan biridir.



Dünya turizmində də azalmalar müşahidə edilir və gözlənilir ki, azalmalar da məhz pandemiya səbəbindən davam edəcək. Amma bu kontekstdən təbii ki, turizmdə yeni qaydaların tətbiq edilməsi və xüsusin də bu istiqamətdə təkmilləşdirmə işlərinin aparılmasına ehtiyac vardı və düşünürəm ki, yeni turizm qanununun da qəbul edilməsi də məhz bu məqsədi daşıyır. Çünki Azərbaycan pandemiyadan sonrakı dövrdə turizmin inkişafına ciddi şəkildə hazırlaşan ölkələrdir. Gözlənilir ki, pandemiyadan sonra yenidən Azərbaycana gələn turistlərin sayının 3 milyondan artıq olmasına nail olmaq mümkün olacaq".

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri, Azərbaycanın QHT sektorunun tanınmış təmsilçisi Gülayə Səfərova:** "Azərbaycan turizmin inkişafı üçün əlverişli bir ölkədir. Ölkəmiz əlverişli coğrafi mövqeyi, dəniz sahilində yerləşməsi, mədəni, tarixi irsi, çox nadir təbii, mədəni, milli, etnoqrafik obyektlər komplekslərinin olması baxımından turizm inkişafı üçün böyük perspektivlərə malikdir. Bu gün cənab Prezidentimizin diqqət və qayğısı sahəsində turizm iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Ölkəmizin demək olar ki, əksər bölgələrində beynəlxalq standartlara cavab verən istirahət mərkəzləri, gəzməli, görməli yerləri çoxdur. Ölkəmizə gələn turistlər ən çox Şəkidə, Qəbələdə, Qaxda, Qusarda istirahət mərkəzlərində və müalicə üçün isə Naftalanda, Qalaaltında, Naxçıvanda Duzdağ Müalicəvi Mərkəzində olurlar. Ölkəmizə gələn turistlərin sayının artmasına səbəb gəzməli, görməli yerlərimizin olması ilə yanaşı eyni zamanda ölkəmizdəki təhlükəsizlik və sabitliyin hökm sürməsidir".



**Deputat Azər Badamov:** "Qlobal pandemiyanın dünya iqtisadiyyatında ən çox təsir etdiyi sahələrdən ən birincisi turizmi sektorudur. Turizm sektoru 2019-cu ildə dünya ÜDM-in 10,4% idisə, 2020-ci ildə 5,5 faiz azalmışdır. 2020-ci ildə turizm sferasında 62 milyon iş yeri ixtisar olunmuşdur. Həm də dünyada turistlərin xarici səyahət xərclər 70% azalıb.

Təbii ki, pandemiyanın təsirləri Azərbaycanın turizm sektorundan yan keçməmişdir. Demək olar ki, 2020-ci ildə ölkəmizin turizm sektoru iflic vəziyyətinə düşmüşdü. Amma 2021-ci ildən pandemiya ilə bağlı tətbiq olunmuş məhdudiyyətlərdə edilmiş yumşalmalar turizm sektorun yenidən canlanmasına səbəb olmuşdur.Çox təəssüf ki, pandemiya hələ də davam edir və bununla əlaqədar xarici turistlərin ölkəmizə gəlişi ilə əlaqədar müəyyən çətinliklər qalmaqdadır. Postpandemiya dövründə dünya turizm sektorunda yenidən rəqabət mühütü yaranacaqdır. Ölkələr çalışacaqlar ki, xarici turizmdə payını artırsınlar. Azərbaycan da turizmin idxalının artmasında maraqlıdır. Ona görə də müasir çağırışlara cavab verən turizm haqqında qanun hazırlanmış və Milli Məclisdə müzakirə olunur. Yeni qanunda tuizm sektorun inkişafına müsbət təsir edəcək bir çox məsələlər öz əksini tapmışdır.



Amma bununla yanaşı xarici turizimin cəlb ediciliyin artırılması üçün bəzi məsələlərə yenidən baxılmalıdır. Çünki, səfər edən hər bir turisti maraqlıandıran məslələrdən biri də səyahət biletlərin və turizm xidmətlərin qiymətlərinin cəlb ediciliyidir. Ona görə hökumət təyyarə biletlərin qiymətlərini qonşu dövlətlərin qiymətləri ilə rəqabətə girə biləcək şəkildə təqdim etməlidir.

Digər bir məsələ isə turizm xidmətlərə əlçatanlığının təmin edilməsidir. Ona görə də otel və restoran xidmətlərinə yenidən baxış keçirilməlidir. Qeyd etməliyik ki, ölkəmizdə müasir turizm məkanları yaranmışdır. Məsələn, Qusarda tikilmiş "Şahdağ" istirahət mərkəzi region ölkələrin ən çox marağında olan məkanlardandır. Keçən illərdə bu məkana ən çox turistlərin gəldiyi ölkələrdən biri Rusiyadır.

Bu gün pandemiya ilə əlaqədar Rusiya ilə quru yolumuzun bağlı olması turistlərin gəlişində problem kimi qalmaqdadır. Düşünürəm ki, heç olmasa qış mövsümü ilə əlaqdar Rusiya ilə quru yolumuz turistlərin üzünə açılmalıdır. Bu gün Azərbaycanın müxtəlif bölgələrində fərqli xidmətlər göstərilən turizm sektorları fəaliyyət göstərir. Məsələn Naftalan sanatoriyalarına MDB ölkələrdən daha çox turistlər gəlir. Ümumiyyətlə biz dünya turizm sektorunda rəqabətə girə biləcək tariflərlə xidmətlər təqdim edə bilsək ölkəmizin turizm sektorunda sıçrayışlı artıma nail ola bilərik. Hətta qeyd edə bilərəm ki, qısa bir zamanda bu sektorun qeyri-neft sektorundakı payını pandemiyadan əvvəlki dövürdən də artırmaq mümkündür".

***A.Vəli***

ARAŞDIRMA

# Onlayn alış-veriş edərkən nələrə diqqət edilməlidir



**Onlayn alış-veriş əməliyyatlarınızda hər hansı saxta əməliyyatlarla qarşılaşmağınıza onlayn alış-veriş fırıldaqçılığı deyilir. Onlayn alış-veriş dələduzluğu son vaxtlar ən çox yayılmış fırıldaqlardan biridir. İnternetin geniş yayılmasından sonra internet fırıldaqları da artıb.**

İnsanlar internet vasitəsilə dələduzluq cinayətləri törədirlər ki, bunu normal həyat tərzində edə bilməzlər. İnternetdə şəxsiyyətini daha asan gizlədən fırıldaqçılara aldanmamaq üçün tanış olmayan saytlardan alış-veriş etməməli, kartınızla bağlı vacib məlumatları istəyən saytlardan uzaq durmalısınız.

Bildiyimiz kimi koronavirus epidemiyası dünyaya təsir etdi və istehlakçıların alış-veriş vərdişləri də dəyişdi. Hal-hazırda onlayn alış-veriş edənlərin sayı artıb. Bəs, onlayn alış-veriş edərkən nələrə diqqət etməliyik? Dükan-dükan gəzməkdən bezmisinizsə, lakin onlayn seçimlərinizdən də əziyyət çəkirsinizsə, asan onlayn alış-veriş üçün bu məsləhətləri yoxlayın.

Koronavirus epidemiyası ilə əlaqədar onlayn alış-veriş artmağa başlayıb. Bir çox vətəndaş mağazalarda uyğun məhsul axtarmaq əvəzinə onlayn alış-veriş edir. Onlayn alış-veriş edərkən nəzərə alınmalı olan bəzi məqamlar bunlardır:

## Doğru alış-veriş təhlükəsiz sayt tapmaqdan başlayır

İlk növbədə, düzgün alış-veriş təhlükəsiz sayt tapmaqdan başlayır.

## Anonim saytlara şübhə ilə yanaşmaq lazımdır

Çox az tanınan və ya adı heç eşidilməmiş saytlara şübhə ilə yanaşmaq lazımdır. Ünvan, başlıq və məlumatlar tam qeydiyyatdan keçməlidir. Məhsulların növü, miqdarı, rəngi, qiyməti, yığım məlumatları (ƏDV daxil olmaqla) daxil edilməlidir.

## Ünvan sətirinə veb saytın adını yazın

İstehlakçılar skeptik olmalıdırlar. Əgər vebsaytda durğu işarələrinin çoxluğu, loqoda rəng tonu fərqliliyi, şrift dəyişikliyi varsa, bilməlisiniz ki, həmin sayt tanınmış internet alış-veriş saytının imitasiyasıdır. Bu zaman axtarış sistemində internet saytlarını axtarmaq yerinə ünvan sətrində birbaşa saytın tam adı yazılmalıdır.

## Məsafədən satış müqaviləsini oxuyun

Məhsulu seçdiniz, ödəniş üsulunu seçdiniz, indi son bir addım qaldı, ödəmə düyməsini sıxmaq, o düyməni basmazdan əvvəl bir şey haqqında düşünmək lazımdır. Siz məsafədən satış müqaviləsini oxumusunuz? Əgər oxumamısınızsa, siz həm hüquqlarınızdan, həm də öhdəliklərinizdən xəbərsizsiniz.

## Təhlükəsiz ödəniş üsulunu seçin

Ödənişləri həyata keçirərkən virtual kartdan istifadə etməyi və təhlükəsiz ödəniş üsulunu seçməyi xatırlamaq vacibdir.

## Məhsul sifarişindən imtina hüququnuzdan istifadə edə bilərsiniz

Məhsul qapınıza çatdı, lakin əskik məhsul və ya sifariş etmədiyiniz məhsul çatdırıldı. Bu halda siz müqavilədən irəli gələn geri çəkilmə hüququndan istifadə etməlisiniz. Eyni zamanda məsafəli müqaviləyə birtərəfli qaydada xitam verilir.

## Ölçülərinizi ölçüb dəqiqləşdirin

Ölçülər markadan asılı olaraq çox fərqli olduğundan, onlayn paltar alış-verişi zamanı ən böyük narahatlıqlardan biridir. Problemi



aradan qaldırmaq üçün əvvəlcədən ölçmələrinizi dəqiqləşdirin və ölçü cədvəlini yoxlayın. Bəzi saytlarda hətta bədəninizi harada və necə ölçmək lazım olduğunu göstərən ölçü cədvəlləri var, buna görə də düzgün məlumatla başlamalısınız.

## Çalışın ödənişsiz çatdırılma olan geyimləri seçin

Bir çox onlayn mağaza, müəyyən bir məbləğdən çox xərclədiyiniz təqdirdə pulsuz çatdırılma təklif edir. Lazım olan paltarları dərhal alın və geyiminizi çatdırılma xərclərindən xilas edin.

## Geyimin altındakı rəyləri oxuyun

Rəylər geyimlərin davamlılığını, onların hansı vəziyyətdə olduğunu, rahatlığını və ölçü cədvəlinə nə qədər uyğun olduğunu təsdiq edə bilər. Bəzi rəylərə müştərilərin şəkilləri də daxildir. Yəni, bəzi müştərilər geyimi əldə etdikdən sonra başqa alıcılar da faydalansın deyə geyinib şəklini saytda paylaşır.

## Materiallar haqqında məlumatlar

Bu ipucu ilk dəfə onlayn alış-veriş edənlər üçün intuitiv olmaya bilər, çünki materialı mağazada əldə etmək asandır, lakin paltarın uyğunluğunu, görünüşünü və toxumasını müəyyən etmək üçün parçanı yoxlamaq vacibdir. Paltarın nədən hazırlandığını bilmək, geyindiyiniz zaman paltarın necə kiçiləcəyi, uzanacağı barədə düşünməyə kömək edir.

## Nəticələri analiz edin

Onlayn mağazalar onlayn olmayan mağazalardan daha çox seçim təklif edirlər, çünki saxlama məhdudiyyəti yoxdur. Seçimlərin çoxluğu həddən artıq çox ola bilər.

Qaytarma şərtlərini oxuyun

Bunları nəzərə alaraq, geri qaytarma siyasəti ilə tanışsınızsa, onlayn aldığınız paltarlardan razı deyilsinizsə, problem yaşamamalısınız. İstənməyən paltarları müəyyən edilmiş müddət ərzində qaytardığınızdan əmin olun. Mağaza geri qaytarmağa icazə vermirsə, başqa yer axtarmağı düşünün. Siz adətən saytda istənilən səhifənin aşağı hissəsində geri qaytarma siyasətinə keçid tapa bilərsiniz.

## Çatdırılma zamanını yoxlayın

Geyimlərin sizə çatması təqribən üç həftə çəkə bilər - əgər beynəlxalq alış-veriş edirsinizsə, daha çox vaxt lazımdır. Normalda, bu böyük bir şey deyil, amma dostunuzun toyu üçün lazım olan paltarı tədbirdən bir gün əvvəl almamağı unutmayın.

SİA onlayn alış-veriş edərkən nələrə diqqət etməli olduğumuz barədə psixoloq və geyim üzrə mütəxəssislərin fikirlərini öyrənib.

Psixoloq Zeynəb Eyyubova: "Ümumiyyətlə, bəzi işlər var ki, insanın beynində sirotanin və dopamin hormonunu qaldırır. Bunları dərman vasitəsi və ya hər hansı bir işləri görərək etmək olur. Hər insanın dopamin və sonatanin hormonunu qaldıran işlər fərqlidir. Məsələn, idmanla məşğul olan insanların dopamin enerjisini idmanla məşğul olmaq qaldırır və yaxud başqa birisi isə qadınlar daha çox alış-veriş edərkən onların xoşbəxtlik hormonları yüksəlir. Bu düzdür, yüz faiz qadınlara aid deyil. Amma 90 faiz etibarilə qadınlar alış-veriş edərkən daha çox zövq alır və bundan xoşbəxt olurlar. Ona görə də psixoloji cəhətdən xoşbəxt olduqlarını hiss edirlər.

Amma həddən artıq çox bu işi görən var ki, yəni qolik vəziyyətinə gələn o artıq pik həddidir. Yəni, hər şey həddində gözəldir. Əgər dayanmadan bu hadisə baş verirsə hər gün artıq bu pik həddidir və psixoloji konsultasiya vacibdir".

Stil məsləhətçisi, geyim psixoloqu Rena Əliyeva: "Onlayn alış-veriş zamanı insan ilk öncə öz bədən quruluşunu bilməlidir ki, düzgün seçim etsin. Çünki bədən iki hissəyə ayrılır: yuxarı bədən və aşağı bədən. Bəzi insanların yuxarı bədəndə problemi ola bilər. Problem dedikdə buraya çiyinlərin normal standartdan daha kiçik olması, qarın hissənin artıqlıq təşkil etməsi, sinənin böyüklüyü nəzərdə tutula bilər. Bu insanlara onlayn alış-verişdə üst hissə üçün geyim almağı məsləhət görmürük. Çünki bu tip bədən quruluşu olan insanlar geyimi geyinib üzərlərində görməlidirlər.

Ayaqlar incədirsə, alt hissə üçün geyimlər sifariş etmək daha rahatdır. Bəzi insanların isə çanaq hissəsi normadan geniş və balacadır. Bu tip insanlar da alt hissə geyimlərini onlayn sifariş verməkdə çətinlik çəkəcəklər.

Onlayn sifarişdə ən risksiz parçalar geniş donlardır. Əgər çiyin asqısı yerindədirsə bədənə tam yapışmayan geniş donlar uğurlu seçim olur və bunu bir çox bədən tipi geyinə bilir. Ümumiyyətlə, geniş geyimlərə onlayn



seçimdə üstünlük vermək yaxşıdır. Dar geyimləri isə üstümüzdə görməliyik. Bədəni düzgün tanıyıb sifariş versək hər şey daha yaxşı olacaq.

Əsas məsələ keyfiyyətdir. Hal-hazırda insanlar mağazalarda geyimi geyinib yoxladıqdan sonra eyni parçanın onlayn sifarişini edirlər. Bunun da səbəbi aradakı olan kəskin qiymət fərqidir. Bu daha məntiqlidir.

Onlayn sifariş incə xanımlar üçün çox böyük problem yaratmasa da artıq çəkili xanımlar üçün müəyyən problem yaradır. Əsas bədən ölçümüzü bilməliyik. Bunun üçün də internetdən araşdırma edə bilərik. Həmçinin hər mağazanın da ölçü sistemi fərqlidir. Onlayn sifarişdə uğursuz addım atmamaq üçün profesional dəstək almaq şərtdir. Mən, müştəri üçün onlayn geyim sifariş etdikdə hər mağazadan fərqli şəkildə ölçü cədvəlini tələb edirəm. Çünki onların balaca bədənləri başqa markada orta bədən sayılır. Bu da ölkələrdəki qadınların bədənlərinə görə təyin edilir.

Onlayn sifariş heç də asan deyil. Hətta normal alış-veriş etməkdən daha çətindir. Seçim etmək, gələn rəngin bizi yanıltmağı da olur. Burada ən vacib məqam da təcrübədir. Mağazanın hansı keyfiyyətdə olmasını, qiymətin münasibliyini isə biz mütəxəssislər bilirik".

***Ayşən***

# Belarus ekspertləri:
# "Minsk Azərbaycanın Brüsseldəki dəstəyini unutmayacaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**"Təəssüflər olsun ki, Belarusun digər məsələlərlə yanaşı, hərbi-siyasi bloklarda olduğu bir sıra ölkələr və bizim həmişə kifayət qədər yaxşı ticarət-iqtisadi əlaqələrimiz olan ölkələr susmaq qərarına gələrək bizi dəstəkləmədilər"**




Xəbər verdiyimiz kimi, 2021-ci il dekabrın 15-də Brüsseldə Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Ermənistan, Aİ dövlət və hökumət başçılarının görüşünün yekunlarına dair bənddən ibarət birgə bəyannamə qəbul edilib. Bəyannamədə Belarusiyada daxili siyasi vəziyyətlə bağlı da bənd var idi. Azərbaycan bu məndə qoşulmadı, bir daha başqa ölkələrin suverenliyinə hörmətlə yanaşdığını, onların daxili işlərinə qarışmadığını nümayiş etdirdi. Bəs Belarus Azərbaycanın bu addımını necə qiymətləndirir? Minsk digər dövlətlərin bu məsələ ilə bağlı mövqeyinə necə reaksiya verdi?

Bu məsələni Belarus Respublikası Milli Assambleyasının Nümayəndələr Palatasının beynəlxalq məsələlər daimi komissiyasının sədri Andrey Savinıx, belaruslu politoloq Sergey Martselev, "Xarici Siyasət və Təhlükəsizlik Araşdırmaları Mərkəzi" İctimai Birliyinin direktoru, Belarus Respublikası Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Geosiyasət Tarixi Mərkəzinin rəis müavini Denis Bukonkin "Caliber" analitik mərkəzinə şərh ediblər. Ekspertlərin şərhlərini oxucularımızın diqqətinə çatdırırıq.

**Andrey Savinıx:**

"Minks Azərbaycanın Belarus Respublikası ilə bağlı düzəlişlərə



qoşulmaqdan imtina etməsinə çox müsbət yanaşır. Şübhəsiz ki, bu, Azərbaycanın həqiqətən müstəqil xarici siyasət yeritdiyinin, həm öz suverenliyinə, həm də başqa dövlətlərin suverenliyinə hörmətlə yanaşdığının göstəricisidir. Ölkələrimizi əsl tərəfdaşlıq və qarşılıqlı yardım birləşdirir. Biz bir-birimizə çox hörmət edirik və birgə inkişafımızı dəstəkləyirik. Təəssüf ki, Şərq Tərəfdaşlığında iştirak edən digər ölkələr mahiyyətcə bu prinsipi pozur və onlar kollektiv Qərb siyasətinin aparıcılarıdır".

**Sergey Martselev:**

"Uzun fasilədən sonra növbəti Şərq Tərəfdaşlığı sammiti baş tutdu. Amma Belarusun yeri boş idi. Minsk-Brüssel xəttində münasibətlərin soyumasından sonra ölkə rəhbərliyi Şərq Tərəfdaşlığında üzvlüyünü dayandırıb. Xatırladaq ki, Belarusda 2020-ci il prezident seç-



kiləri fonunda daxili siyasi böhrandan sonra münasibətlər pozulub. Avropa İttifaqı borclu qalmadı və iştirakçılara Belarus hakimiyyətinin hərəkətlərini pisləyən sammit bəyannaməsinin 11-ci bəndini təklif etdi.

Azərbaycan bununla razılaşmayaraq, öz imtinasını "Belarusun suverenliyinə hörmət və daxili işlərinə qarışmamaq" ilə əsaslandırıb.

Lakin Azərbaycan burada tək qaldı. Ermənistan Belarusla bərabərhüquqlu münasibətlər saxlasa da, onunla birgə KTMT-nin üzvüdür, lakin bu məsələdə geosiyasi düşməni Azərbaycanla həmrəylik onun üçün reputasiya zərbəsi olardı.

Gürcüstan, Ukrayna və Moldovaya gəlincə, onlar Aİ-yə tamhüquqlu üzvlük üçün çalışırlar və gözlənildiyi kimi Brüsselin təşəbbüsünü dəstəkləyiblər.

Öz növbəsində Azərbaycan və Belarusu uzunmüddətli uğurlu siyasi, iqtisadi və hərbi-texniki əməkdaşlıq birləşdirir. Belarus hərbi-sənaye kompleksi Azərbaycanın hava hücumundan müdafiə sistemlərini modernləşdirib, "Polonez"lərlə təchiz edilib. Öz növbəsində 2020-ci il böhranı zamanı SOCAR Belarusa Rusiya tədarükçülərindən yan keçərək alternativ mənbələrdən neft əldə etməyə kömək edib. Dövlət başçıları mütəmadi olaraq görüşür, ona görə də Azərbaycanın diplomatik addımı başa düşüləndir və iki dövlətin əvvəlki mehriban qonşuluq siyasətinin davamıdır".

**Denis Bukonkin:**

"Belarus və Azərbaycan arasında kifayət qədər yüksək səviyyəli əlaqələr mövcuddur və onlar müstəsna olaraq müsbət dinamikada inkişaf edir. İki ölkə arasında kifayət qədər yaxşı münasibətlər inkişaf edib. İki dövlətin liderlərini əminliklə dost adlandırmaq olar. Bu baxımdan Azərbaycanın Belarusun daxili siyasi proseslərinə müdaxiləsinə və Şərq Tərəfdaşlığı sammitinin siyasiləşdirilmiş qiymətləndirmələrinə qoşulmasına



qarşı çıxması təəccüblü deyil.

Onu da başa düşmək lazımdır ki, qətnamənin belə bir bəndi eskalasiya yolunda olan Belarus və Aİ arasında kifayət qədər gərgin vəziyyət kontekstində yaranıb. İnanıram ki, Belarusun hazırkı rəhbərliyi Azərbaycanın bu cür addımlarını heç vaxt unutmayacaq. Təəssüflər olsun ki, Belarusun digər məsələlərlə yanaşı, hərbi-siyasi bloklarda olduğu bir sıra ölkələr və bizim həmişə kifayət qədər yaxşı ticarət-iqtisadi əlaqələrimiz olan ölkələr susmaq qərarına gələrək bizi dəstəkləmədilər. Lazım gələrsə, biz çiyin-çiyinə onlara kömək etməyə hazırıq, amma təəssüf ki, bu ölkələr Belarusdakı vəziyyətlə bağlı siyasiləşdirilmiş qiymətləndirmələrə cəlb olundular.

Eyni zamanda, Minsk heç bir şəkildə Azərbaycanla Aİ arasında yaxşı münasibətlərin inkişafına mane olmaq istəmir. Amma münasibətlərin inkişafı digər ölkələrə münasibətlərin ziyanına getməməlidir".

***Tərcümə - Elçin Bayramlı***

SƏS
17 dekabr
2021-ci il

# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Mbappe:

## “Təcrübə puldan vacibdir”



PSJ-nin futbolçusu Kilian Mbappe gələcək karyerası və planları barədə danışıb. Qol.az GFNN-ə istinadən xəbər verir ki, 23 yaşlı hücumçu əsas məqsədinin çox pul qazanmaq olmadığını vurğulayıb:

”Baxmayaraq ki, bizim qayğı göstərməli olduğumuz ailələrimiz var, təcrübə pul qazanmaqdan daha vacibdir. Hər şeydən əvvəl kəşf etmək, səyahət etmək, başqa oyunçularla görüşmək, fərqli mədəniyyətlər qazanmağı arzulayıram. İlk vaxtlar ulduz sayılmaq hissi ilə yaşamaq bir az çətin idi. Yaxşı ki, valideynlərim transfer məbləğimi mənə demədilər. 14 yaşlı uşağı milyonlarla dollar dəyərində olduğunu öyrəndikdən sonra onu necə böyütmək olar? Bunun sayəsində pula qarşı sakit münasibətim var. Bunun vacib olduğunu başa düşürəm. Şadam ki, məndə belə keyfiyyətlər var. Pul mənim gündəlik motivasiyam deyil”. Qeyd edək ki, Mbappe 2017-ci ildən PSJ-də oynayır.

# Sosial media ŞOKDA:

## *Ana və qızını ayırd edə bilmədilər*



44 yaşlı Kolin Diaz adlı ana 21 yaşlı qızı Meilani ilə tanışlıq saytının üzvü olub. Gəncliyi və gözəlliyi sayəsində qızı kimi gənc görünən ananın hesabının saxta olduğu düşünüləndə platforma, Diazı saytdan çıxarıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, istifadəçilər, Diazın profilinə baxdıqda onu Meilaninin böyük bacısı olduğunu zənn ediblər. Lakin, insanlar onun Meilaninin anası olduğunu biləndə buna inanmayıblar. Özündən kiçik oğlanların ona mesaj yazaraq təriflədiyini deyən Diaz, bu vəziyyətin onu çox sevindirdiyini bildirib.

***Rüqəyya Orucova***

# Uşaqlarda aqressiyanın səbəbləri nələrdir?

Psixoloq açıqladı

”Aqressiya insanın öz narazıçılığını kobud formada ifadə etmə şəklidir. Adətən aqressiya özünü müxtəlif şəkillərdə büruzə verir ki, bunlar verbal, qeyri-verbal, jestlərlə, mimikalarla və səssiz qalma halı ilə özünü göstərə bilir. Hazırkı dövrdə aqressiv davranış forması və aqressiya halları uşaqlarda da geniş şəkildə yayılıb”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zərrin Təhməzli qeyd edib.

Onun sözlərinə görə, aqressiv davranış və aqressiya halını yaradan ilkin səbəblər qeyd etdiyimiz kimi genetik faktor, ətraf mühit, tərbiyə üsulu və ailə mühiti ola bilər: ”Ailə mühiti dediyimizdə ilk növbədə uşağın dünyaya gəldiyi ailə və o ailənin tərbiyə üsulu, uşağı böyütmə üsulu nəzərdə tutulur. Körpəlik dövründə əgər tərbiyyə üsulu düzgün seçilmirsə artıq uşaqda aqressiv davranış formalaşmağa başlayır. Ailə daxilində, valideynlər arasında olan münaqişələr, aqressivliklər uşağın gözü qarşısında olarsa bu uşağın emosional gərilməsinə səbəb olur. Xüsusilə həmin dövrlər uşaqların təqlidetmə dövrləri olduğu üçün uşaqlar bu halları görüb yamsılamağa başlayırlar. Həm əsəbilik, həm aqressivlik yaradır, həm də təqlid etdiyinə görə bu davranışı vərdiş halına çevirir.

Digər bir amil isə tərbiyə üsuludur. İstər ailə içərisində, istər bağçada, istərsə də məktəbdə tərbiyə üsulu düzgün seçilməlidir. Uşağa uyğun şəkildə, onun fərdi bacarığına uyğun şəkildə seçilməlidir. Əksi olduğu təqdirdə yenə də bu uşaqlarda aqressiv davranışa səbəb olur. Müəyyən qaydalar və qanunların tətbiq olunması vacibdir və tərbiyə üsulunda mühüm rol oynayır. Əgər bunlar tətbiq olunmadan uşaq tərbiyə olunursa, ərköyünlük adlandırılan düşüncə çərçivəsində uşaq böyüdülürsə bu zaman uşaqda nəinki, aqressivləşmə həmçinin davranış pozğunluğu, emosional gərilmə və emosional pozğunluq yaranır. Belə olduqda artıq öz bacarıqlarını, öz düşüncə tərzini, fikirlərini idarə edə bilmir. Ona görə də uşağı həm pedaqoji baxımdan, həm də psixoloji baxımdan düzgün yönləndirmək lazımdır. Onunla ciddi məşğul olmaq lazımdır.

Başqa bir amil isə genetik faktordur. Genetik faktor da öz növbəsində aqresiyyanı ötürən bir amildir. Əsasən nəsildən-nəsilə ötürülən xüsusiyyətlər var və bu xüsusiyyətlər birbaşa sinir sistemi vasitəsilə ötürülür. Əgər həmin irsin, genotipin sinir sistemində müəyyən mənada qıcıqlanmaya yüksək meyillilik, hərəkətlilik, yəni aqressiyaya meyillənmə halı varsa bu da təbii ki, uşağa ötürülmüş olur. Artıq həmin uşağın sinir sisteminin yüksək qıcıqlanma səviyyəsində olması ən cüzi hadisələrdən belə əsəbləşməsinə səbəb ola bilir. Yəni aqressiyasını tətikləyir. Aqressiv davranışlar dediyim kimi müxtəlif şəkillərdə özünü göstərə bilirlər. Əsasən uşaqlarda aqressiv davranışlar körpəlik dövrlərdən yaranır, daha sonra uşaqlıq dövründə, məktəbə qədərki dövrdə də davam edir. Xüsusilə vurma şəklində, xəsarət yetirmə şəklində, itaət göstərməmək, tapşırılanları qəbul etməmək və yalan danışma kimi halların artmasına səbəb olur. Bu tip uşaqlar əsasən ünsiyyətdən qaçırlar, başqaları ilə əlaqə qurmaq istəmirlər. Ümumiyyətlə uşaqlarda bu hallara rast gəliriksə demək ki, bu uşaqlarda aqressiya yüksəkdir və davranışlarında müəyyən pozğunluqlar var”.



***Abutel İlhamqızı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**